RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 213 (9958) 4 oktyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qarşı tərəfin müraciəti ilə...

## Prezident İlham Əliyevin Kopenhagendə keçirdiyi görüşlər dövlətimizin başçısının yüksək nüfuzunun növbəti göstəricisi oldu

Azərbaycanın müstəqil və qətiyyətli siyasəti nəticəsində Cənubi Qafqaz regionunda yaradılan yeni reallıqları dünya qəbul edir və ölkəmizin sülh modeli təqdirlə qarşılanır. Avqustun 8-də Vaşinqtonda Ermənistan-Azərbaycan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Birgə Bəyannamənin imzalanması, sülh müqaviləsinin mətninin paraflanması, ümumiyyətlə, sülh gündəliyinin irəlilədilməsi baxımından mühüm addımlar atılması beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edib. BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevə göstərilən böyük diqqət, həmin mötəbər tədbir çərçivəsində yenə də qarşı tərəflərin istəyi ilə Azərbaycan rəhbəri ilə keçirilən yüksəksəviyyəli görüşlər də buna bariz göstəricidir. İlham Əliyevin BMT-nin bu mühüm tədbirinə elə məhz vaxtilə BMT TŞ-nin qəbul etdiyi və düz 27 il kağız üzərində qalan qətnamələrini döyüş meydanında özü yerinə yetirən qalib ölkənin lideri və sülh yaradan Prezident kimi qatılması müstəsna hal idi. Bu yüksək platformada dövlətimizin başçısına göstərilən ehtiram və diqqət də nəzərlərdən yayınmadı. Həmçinin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında müxtəlif ölkələrin liderlərinin, qurumların rəhbərlərinin Prezident İlham Əliyevlə görüşməkdə maraqlı olmaları heç də təsadüfi xarakter daşımırdı.

Bu gün dünyada ən çox sülhə ehtiyac duyulur. Ancaq müharibələrin dayandırılması, barışın bərqərar olması üçün indiyə qədər aparılan dialoqlar, keçirilən görüşlər, görülən tədbirlər nə yazıq ki, uğurlu bəhrəsini verməyib, silahlar susmayıb. Dünyanın hazırkı sabitlikdən uzaq acınacaqlı mənzərəsinin fonunda Cənubi Qafqazda Azərbaycanın qətiyyəti sayəsində yaradılan sülh mühiti qabarıq şəkildə ön plana çıxır.

Buna görədir ki, Prezident İlham Əliyevlə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində keçirilən görüşlərdə bölgədə sülh gündəliyinin irəlilədilməsində əldə olunan nailiyyətlərlə bağlı təbriklər qırmızı xətt kimi keçir.

Moldova Prezidenti Maya Sandu, Niderland Krallığının Baş naziri Dik Sxof, Fransa Prezidenti Emmanuel Makron Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələrə görə dövlətimizin başçısını təbrik etdilər.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen də dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Aİ rəsmiləri sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər.

Kopenhagendə Prezident İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyan ilə də görüşü olub. Görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

4

# Almaniya bizim üçün vacib tərəfdaş ölkədir

**Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə**



Hörmətli cənab Prezident!

3 Oktyabr - Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Almaniya bizim üçün vacib tərəfdaş ölkədir və biz ikitərəfli əlaqələrimizin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Sizin aprel ayında Azərbaycana səfəriniz geniş gündəliyə malik əməkdaşlığımızın inkişafına yeni təkan verdi.

İnanıram ki, Azərbaycan ilə Almaniya arasında dostluq münasibətlərinin inkişafı, bir sıra sahələr üzrə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın davam etdirilməsi və yeni məzmunla zənginləşməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Azərbaycan - Koreya əlaqələri uğurla inkişaf edir

**Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Li Cemyönə**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Koreya arasında əlaqələrin uğurla inkişafı məmnunluq doğurur. Bu gün bir sıra sahələrdə, xüsusilə də iqtisadi-ticari, sənaye, yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi üçün yaxşı imkanlar vardır.

İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Koreya əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı fəaliyyətimizin genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində 3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:




*"3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günüdür.*

*Məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur.*

*Bu əlamətdar gün münasibətilə türk dünyasını səmimi-qəlbdən təbrik edirəm.*

*Türk dünyası bizim ailəmizdir!*

*Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir.*

*Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir.*

*Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir!"*

# Azərbaycan-İraq münasibətləri birgə səylərlə daha da möhkəmlənəcək

**İraq Respublikasının Prezidenti zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə**



Hörmətli cənab Prezident!

İraq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu yaxınlarda Nyu Yorkda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini yüksək qiymətləndirirəm. Əminəm ki, Azərbaycan-İraq münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*



## “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 286** **Bakı şəhəri, 2 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının 6.3-cü bəndinin və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1146 (Cild I); 2025, № 3, maddə 269) 3-1-ci hissəsinə ikinci halda "Holdinqinin" sözündən sonra "və "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Qaydası”nda və 2009-cu il 19 mart tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 287** **Bakı şəhəri, 2 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 avqust tarixli 483 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 975 (Cild I); 2025, № 5, maddə 499) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Qaydası"nın 1-ci hissəsinin ikinci abzasına "Daxili İşlər Nazirliyinin," sözlərindən sonra "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 3, maddə 196 (Cild I); 2025, № 5, maddə 499) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Qaydası"nın 1-ci hissəsinə "Daxili İşlər Nazirliyinin," sözlərindən sonra "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 288** **Bakı şəhəri, 2 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627 (Cild I); 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları"nın 6-cı hissəsinə "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1998, № 10, maddə 637 (Cild I); 2024, № 1, maddə 79; 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.7.12-ci yarımbənddə "balıq mühafizə orqanları ilə" sözləri "balıq və digər su bioresurslarının mühafizəsi məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə" sözləri ilə əvəz edilsin;

2.2. 2.8-ci bənddə "balıq mühafizə orqanları tərəfindən" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən" sözləri ilə əvəz edilsin;

2.3. 4.9.5-ci yarımbənddə "balıq mühafizə xidmətini" sözləri "balıq və digər su bioresurslarının mühafizəsini" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I); 2024, № 2, maddə 208; 2025, № 4 (I kitab), maddə 384, № 5, maddə 503) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1.1. 4-cü hissənin ikinci abzasında "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin və həmin abzasdan "və balıq mühafizə xidməti" sözləri çıxarılsın;

3.1.2. 10-cu və 12-ci hissələrdə "balıq mühafizə xidməti" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.1.3. 11-ci hissədə "balıqçılıq mühafizə xidmətinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

3.1.4. 15-ci hissəyə "normaları" sözündən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından istifadə haqqı və qaydaları"nın 2-ci hissəsinin birinci abzasında "müvafiq icra hakimiyyəti orqanları" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 244 (Cild I); 2024, № 12 (II kitab), maddə 1451; 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları"nın 5-ci, 6-cı və 19-cu hissələrinə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözlərindən sonra ismin müvafiq hallarında "və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin.

5. "Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısının, mühafizə rejimi və təhlükəsizliyi üzrə Təsnifatı"nın, "Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları"nın və "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli 109 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 464 (Cild I); 2025, № 4 (I kitab), maddə 384) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş "Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları"nın 12-ci, 13-cü, 18-ci və 20-ci hissələrinə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözlərindən sonra "Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.2.1. 5-ci hissəyə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözlərindən sonra "Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin;

5.2.2. 11-ci hissədə "su quyuları, balıqburaxan və balıqqoruyucu qurğular üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözləri "su quyuları üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, balıqburaxan və balıqqoruyucu qurğular üzrə Kənd Təsərrüfatı Nazirliyi," sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 957 (Cild I); 2024, № 2, maddə 229; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.2-ci bəndin birinci abzasına (birinci halda) "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözlərindən sonra "və Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin;

6.2. 6.5-ci bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 202 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 973 (Cild I); 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları"nın 1.2-ci bəndində "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 203 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 974 (Cild I); 2024, № 2, maddə 208) ilə təsdiq edilmiş "Təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.1-ci, 3.7-ci və 3.12-ci bəndlərdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

8.2. 3.3-cü bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə, "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyini" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyini" sözləri ilə əvəz edilsin;

8.3. 3.6-cı və 3.8-ci bəndlərdə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

8.4. 3.9-cu bənddən "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinın balıq mühafizə qurumlarının," sözləri çıxarılsın;

8.5. 3.10-cu bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balıq mühafizə qurumlarında" sözləri "Kənd Təsərrüfatı Nazirliyində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 975 (Cild I); 2024, № 2, maddə 208) ilə təsdiq edilmiş "Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.4-cü, 2.7-ci və 2.10-cu bəndlərdə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

9.2. 2.1-ci bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyində" sözləri "Kənd Təsərrüfatı Nazirliyində" sözləri ilə əvəz edilsin;

9.3. 2.3-cü bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə, "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyini" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyini" sözləri ilə əvəz edilsin;

9.4. 2.8-ci, 2.16-cı, 2.20-ci və 2.22-ci bəndlərdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

9.5. 2.13-cü bənddən "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinın balıq mühafizə qurumlarının," sözləri çıxarılsın;

9.6. 2.14-cü bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinın balıq mühafizə qurumlarında" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 976 (Cild I); 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.7-ci bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin və həmin bəndə "Fövqəladə Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözləri əlavə edilsin;

10.2. 2.8-ci, 2.13-cü və 2.14-cü bəndlərdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

10.3. 2.9-cu bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

10.4. 2.10-cu bəndə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin;

10.5. 2.11-ci bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

10.6. 2.12-ci bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin bəndə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyini" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyini," sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 may tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 989 (Cild I); 2024, № 2, maddə 209; 2025, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərdə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin;

11.2. 2.4-cü və 2.5-ci bəndlərdə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin bəndlərə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözləri əlavə edilsin;

11.3. 2.6-cı bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə, "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə" sözləri ilə əvəz edilsin və həmin bəndə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi," sözləri əlavə edilsin;

11.4. 2.7-ci və 2.8-ci bəndlərdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

11.5. 2.9-cu bənddə "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 iyun tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1220 (Cild I); 2024, № 3, maddə 331, № 5 (II kitab), maddə 611; 2025, № 5, maddə 503) ilə təsdiq edilmiş "Balıq və digər su bioresursları ovunun Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1.9-cu bənddə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

12.2. 1.10-cu bənd ləğv edilsin;

12.3. 7.1-ci bənddə "Nazirlik yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti" sözləri "Nazirliyin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

12.4. 7.5.1-ci və 7.6.1-ci yarımbəndlərdə "Nazirlik yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin" sözləri "Nazirliyin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxsin" sözləri ilə əvəz edilsin;

12.5. həmin Qaydalara 7 nömrəli əlavə - "Kvota ayrılması barədə ərizə forması"nda "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə, "Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti" sözləri "Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

12.6. həmin Qaydalara 8 nömrəli əlavə - "Balıqovlama Bileti"ndə, 9 nömrəli əlavə - "Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş olan balıq və digər su bioresurslarının ovu barədə Akt"da, 10 nömrəli əlavə - "Akvakultura, elmi tədqiqat, təhsil, maarifləndirmə, nəzarət, iqlimləşdirilmə məqsədləri ilə və balıq və digər su bioresurslarının ovu barədə Akt"da, 11 nömrəli əlavə - "Laboratoriya müayinəsi üçün götürülmüş balıq və digər su bioresurslarının çıxdaş edilməsi barədə Akt"da və 12 nömrəli əlavə - "Ovlanmış balıq və digər su bioresurslarının mənşəyi haqqında Qaimə"də "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1231 (Cild I); 2024, №1, maddə 116, № 3, maddə 331; 2025, № 5, maddə 503) ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın 2.5-ci bəndində "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (ll kitab), maddə 2745 (Cild I); 2025, № 2, maddə 195; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 sentyabr tarixli 266 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 3.3.1-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Böyük iyirmilik" ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammiti başa çatıb







**Cənubi Afrika Respublikasının Keyptaun şəhərində keçirilən "Böyük iyirmilik" ölkələrinin (G20) Parlament Sədrlərinin 11-ci Sammiti başa çatıb. Sammitdə iştirak etmək məqsədilə bu ölkədə işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova tədbirin bağlanış mərasimində iştirak edib.**



Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mərasimdə çıxış edənlər sammitin uğurlu təşkil olunduğunu bildirərək tədbirdə bir çox mühüm və böyük aktuallıq kəsb edən mövzuların parlamentarilər tərəfindən müzakirə edildiyini və səmərəli fikir mübadiləsi aparıldığını diqqətə çatdırıblar.

Sammitin ev sahibi Cənubi Afrika Respublikasının Milli Assambleyasının Sədri Toko Didiza Azərbaycan parlamentinin spikeri, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarovaya tədbirdə iştirakına görə təşəkkürünü bildirib.

Sahibə Qafarova mərasim çərçivəsində Zimbabve Milli Assambleyasının spikeri Yakob Mudenda, CAR Milli Assambleyasının sədri Toko Didiza, Braziliya parlament nümayəndə heyətinin rəhbəri Cek Roça ilə görüşüb.

Görüşlərdə P20 Sammitinin və orada müzakirə olunan məsələlərin vacibliyi qeyd olunub, parlamentlərarası və dövlətlərarası qarşılıqlı münasibətlərin perspektivləri barədə danışılıb.

Spiker Sahibə Qafarova bu sammitin yüksək səviyyədə təşkilinə və Azərbaycan parlamentinin, həmçinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Sədri kimi onun fəaliyyətinə verilən yüksək qiymətə görə CAR Milli Assambleyasının Sədri Toko Didizaya təşəkkürünü bildirib.

Xatırladaq ki, spiker Sahibə Qafarova Cənubi Afrika Respublikasına işgüzar səfəri çərçivəsində sammitin açılış mərasimində və tədbir çərçivəsində keçirilən "Fəlakətlərə qarşı dayanıqlığın və cavab tədbirlərinin gücləndirilməsi" mövzusunda müzakirələrdə çıxış edib.

*"Azərbaycan"*

# Azərbaycanla Türkiyə arasında statistika sahəsində Anlaşma Memorandumu imzalanıb

**Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası çərçivəsində oktyabrın 3-də Türkiyə Statistika İnstitutunda Dövlət Statistika Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**





Görüş çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu imzalanıb. Memorandumu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Türkiyə Statistika İnstitutunun prezidenti Erhan Çetinkaya imzalayıblar.

Memorandumda nəzərdə tutulmuş işlərin həyata keçirilməsi rəsmi statistika sahəsində ikitərəfli əlaqələrin daha da intensivləşdirilməsi və gücləndirilməsinə, statistik istehsal prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və statistikanın bir sıra sahələrində qabaqcıl təcrübənin qarşılıqlı mübadiləsinə töhfə verəcəyi qeyd olunub.

*"Azərbaycan"*

# Leyla Əliyevanın təşəbbüsü ilə Xəzər dənizinə həsr olunmuş beynəlxalq konfrans təşkil edilib



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə oktyabrın 2-3-də Bakı Konqres Mərkəzində "Xəzər dənizi üçün dönüş nöqtəsi: COP29 və UNOC 2025 nəticələrindən COP30 üzrə fəaliyyətə keçid" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, oktyabrın 3-də açılış sessiyasında çıxış edən Azərbaycan Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, "Great Whale Conservancy" təşkilatının təsisçisi və direktoru Maykl Fişbax, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş əməliyyat direktoru Yucin Six və tədbirə onlayn qoşulan BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Cenevrə Qlobal Resurs Məlumat Bazasının direktoru Paskal Peduzzi dünyanın ən böyük və analoqu olmayan su hövzəsi olan Xəzər dənizinin problemlərindən bəhs edib, dəniz səviyyəsinin azalması, bioresursların tükənməsi, sahilyanı ekosistemlərin deqradasiyası və çirklənmə kimi çağırışların hər bir dövlətin təkbaşına həll edəcəyi problemlər olmadığını diqqətə çatdırıblar.

Qeyd olunub ki, Xəzərin səviyyəsində son onillikdə müşahidə olunan enmə prosesləri həm sahilyanı infrastruktur, həm də ekosistemlər üçün ciddi fəsadlar yaradır. Son 30 ildə 2,5 metr enmə yaranıb ki, bu da balıqçılıq təsərrüfatı, yaşayış məntəqələri və ekosistemlərin dayanıqlılığına mənfi təsir göstərir. Suyun çəkilməsi də yeni ekoloji risklər yaradır. Belə ki, torpaq duzlaşması, bioloji müxtəlifliyin zəifləməsi kimi problemlər ortaya çıxır. Bildirilib ki, qlobal əhəmiyyətə malik olan Xəzər dənizində iqlim dəyişikliyi səbəbindən gedən proseslərin təsir və nəticələri regional xarakter daşıyır və yalnız koordinasiyalı tədbirlər, ortaq tədqiqatlar və qarşılıqlı etimad şəraitində aradan qaldırıla bilər. Həmçinin Azərbaycanın COP29 sədrliyi dövründə əldə olunan nəticələrin praktiki addımlara transformasiyasının vacib olduğu da vurğulanıb.

Tədbir müzakirələrlə davam edib. Müzakirələrdə çıxış edən COP29 prezidentliyi, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat), eləcə də müxtəlif ölkələrin ixtisaslaşmış elmi-tədqiqat müəssisələrinin nümayəndələri Xəzər dənizinin mühafizəsi üzrə regional əməkdaşlıq imkanları, su ehtiyatlarının idarə olunması və beynəlxalq səviyyədə koordinasiyanın gücləndirilməsi məsələlərinə toxunublar. İştirakçılar Xəzər dənizinin ekoloji vəziyyətinə dair mövcud çağırışları qeyd edərək beynəlxalq elmi əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, IDEA və Caspisnet elmi şəbəkəsinin birgə təşkilatçılığı ilə həyata keçirilən tədbirin məqsədi 10-dan çox ölkəni təmsil edən dəniz ekologiyası, dayanıqlı akvakultura, hidrologiya, coğrafi informasiya sistemləri və bir sıra digər müvafiq sahələr üzrə ixtisaslaşmış alim və ekspertləri bir araya gətirərək Xəzər dənizinin səviyyəsinin dəyişmə dinamikası, dəniz biomüxtəlifliyi və ekoloji balansın qorunması yollarına dair fikir mübadiləsi aparmaq, eləcə də birgə həll yollarını müzakirə etməkdən ibarətdir.

Tədbir çərçivəsində həmçinin iştirakçıların Xəzərin zəngin biomüxtəlifliyi ilə birbaşa tanış olmaları üçün Abşeron Milli Parkına səfəri təşkil ediləcək.

# Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində Davamlı Karyera Sərgisi keçirilib




**Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW2025) çərçivəsində Davamlı Karyera Sərgisi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi tələbələri davamlılıq sahəsində mövcud real karyera imkanları ilə tanış etmək, müxtəlif sektorların "yaşıl iqtisadiyyat"a töhfəsini göstərmək və gəncləri bu istiqamətdə peşəkar inkişaf yoluna təşviq etməkdir.

Milli Məclisin deputatı, COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai sərginin açılış mərasimində Bakı İqlim Fəaliyyəti Həftəsi ərzində keçirilən silsilə tədbirlərdə kənd təsərrüfatı, su qıtlığı, qadın və uşaq problemləri ilə bağlı əsas mövzuların geniş tərkibdə müzakirə olunduğunu deyib. O, çıxışında gənclərin mövcud reallıqlara uyğunlaşması üçün yeni bacarıqlara ehtiyaclarının olduğunu vurğulayıb: "İqlim dəyişikliyi gələcəkdə bütün sahələrə təsir edəcək. Bu səbəbdən gənclər daha çevik olmalıdırlar. Çünki iqlim dəyişikliyi reallıqdır və bəzi bölgələrə təsiri daha güclüdür. Gənclərə mesajım odur ki, onlar daha məsuliyyətli olmalıdırlar".

COP29-un iqlim üzrə gənclər çempionu Leyla Həsənova qeyd edib ki, Bakı İqlim Fəaliyyəti Həftəsində müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər bir araya gəlib. Bu müddət ərzində həmçinin çoxtərkibli tədbirlər təşkil olunub. O deyib ki, bu sərgi gənclərin, o cümlədən tələbələrin davamlılıq problemlərinin öyrənilməsi istiqamətində olduqca uğurlu platformadır. "Düşünürəm ki, hər kəs bu karyera sərgisində öz hekayələrini paylaşaraq faydalanacaq", - deyə L.Həsənova vurğulayıb.

COP29-un könüllülərlə iş üzrə rəhbəri, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin layihələr və könüllülərlə iş şöbəsinin müdiri Adilə Əliyeva isə vurğulayıb ki, Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən Davamlı Karyera Sərgisi olduqca qürurvericidir: "Burada iştirak edənlərin çoxu məhz COP29 könüllüləridir. Siz COP29 zamanı davamlılıq haqqında dəyərli biliklər qazandınız, qlobal müzakirələrin bir hissəsində oldunuz və Azərbaycanın gələcəyi üçün çox vacib təcrübə topladınız. Bu gün həmin gənclər öz bilik və təcrübələrini daha da dərinləşdirmək, onları peşəkar karyera yoluna daşımaq üçün buradadırlar. Davamlılıq yalnız bir ideya deyil, o, gələcəyin, iş dünyasının, iqtisadiyyatın və cəmiyyətin əsasını təşkil edən dəyərdir. Bizim üçün isə ən önəmlisi sizin fikirlərinizi eşitməkdir. Ümid edirəm ki, bu gün burada qurduğunuz əlaqələr və müzakirələr sizə yeni istiqamətlər göstərəcək, ilham verəcək və davamlılıq yolunda daha böyük addımlar atmağınıza kömək edəcək".

Daha sonra "Pasha Property Management" şirkətinin İnsan resursları direktoru, Alman Ticarət Palatasının İnsan Resursları və Təhsil-Təlim İşçi Qrupunun sədri Nigar Hüseynzadənin moderatorluğu ilə keçirilən paneldə bu günün sektor tələbləri müzakirə olunub.

"Holcim Azərbaycan" şirkətinin kommunikasiya və davamlı inkişaf meneceri, Holcim Qrupunun nümayəndəsi, Azərbaycan-Amerika Ticarət Palatasının Davamlı İnkişaf və Korporativ Təsir Komitəsinin sədri Rana Tahirova yaxın gələcəkdə əhalinin 70 faizinin şəhərlərdə yaşayacağını vurğulayıb: "Bu böyük bir çağırış deməkdir, çünki həmin artımı qarşılamaq üçün yeni və davamlı infrastruktur qurulmalıdır. Bizim şirkət də məhz bu sahəyə fokuslanaraq şəhərlərin dayanıqlı və yaşana bilən məkana çevrilməsi üçün çalışır".

"Deloitte" şirkətində strategiya, risk və əməliyyatlar meneceri, Azərbaycan-Fransa Ticarət Palatasının ESG Komitəsinin sədri Mədinə Məmmədova on il əvvəl davamlılıq məsələlərini müzakirə etməyin o qədər də populyar olmadığına diqqət çəkib. Eyni zamanda vurğulayıb ki, indi artıq bütün dairələr - istər dövlət, istərsə də biznes sektoru öz işini davamlılıq prinsipləri üzərində tənzimləyir. "Bu, sadəcə, trend deyil, gələcəyin zəruri şərtidir", - deyə o diqqətə çatdırıb.

AZAL-da Davamlılıq üzrə potensialın gücləndirilməsi şöbəsinin rəhbəri Elnarə Quliyeva nəqliyyat sektorunda müştərilərin və investorların artıq davamlılığa xüsusi diqqət yetirdiyini deyib: "Biz də bu istiqamətdə yeniliklər tətbiq edirik, sistemimizi modernləşdiririk. Məsələn, onlayn check-in xidməti və baqajların canlı izlənməsi kimi həllər bunun bariz nümunəsidir".

Sonda "Azerconnect Group" şirkətində İşçi Transformasiya Proqramlarının rəhbəri Elnarə Məcidova davamlılığın yalnız ətraf mühitin qorunması ilə məhdudlaşmadığını bildirib. Onun sözlərinə görə, bu, həm də yeni iş modelləri, texnoloji transformasiya və gənclərin inkişaf imkanları deməkdir. "Biz inanırıq ki, innovasiya və insan kapitalına yatırım, Azərbaycanın davamlı gələcəyinin əsasını təşkil edəcək", - deyə o vurğulayıb.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Qarşı tərəfin müraciəti ilə...

### Prezident İlham Əliyevin Kopenhagendə keçirdiyi görüşlər dövlətimizin başçısının yüksək nüfuzunun növbəti göstəricisi oldu

**Oktyabrın ilk günündən etibarən dünya liderləri "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün Danimarkanın paytaxtı Kopenhagenə toplaşıblar. Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edir. Plenar iclaslarda və ondan sonra keçiriləcək "dəyirmi masa"larda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur. Prezident İlham Əliyev oktyabrın 1-də Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gedib.**



Səfər çərçivəsində ölkəmizin rəhbəri Kopenhagendə qarşı tərəflərin müraciətlərinə əsasən çoxsaylı mühüm görüşlər keçirib. Prezident İlham Əliyev Moldova Prezidenti Maya Sandu, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen, İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni, Ukrayna Prezidenti Volodimir Zelenski, Niderland Krallığının Baş naziri Dik Sxof, Fransa Prezidenti Emmanuel Makronla görüşüb.

#### Azərbaycan nümunəsi

Azərbaycanın müstəqil və qətiyyətli siyasəti nəticəsində Cənubi Qafqaz regionunda yaradılan yeni reallıqları dünya qəbul edir və ölkəmizin sülh modeli təqdirlə qarşılanır. Avqustun 8-də Vaşinqtonda Ermənistan-Azərbaycan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Birgə Bəyannamənin imzalanması, sülh müqaviləsinin mətninin paraflanması, ümumiyyətlə, sülh gündəliyinin irəlilədilməsi baxımından mühüm addımlar atılması beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edib. BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevə göstərilən böyük diqqət, həmin mötəbər tədbir çərçivəsində yenə də qarşı tərəflərin istəyi ilə Azərbaycan rəhbəri ilə keçirilən yüksəksəviyyəli görüşlər də buna bariz göstəricidir. İlham Əliyevin BMT-nin bu mühüm tədbirinə elə məhz vaxtilə BMT TŞ-nin qəbul etdiyi və düz 27 il kağız üzərində qalan qətnamələrini döyüş meydanında özü yerinə yetirən qalib ölkənin lideri və sülh yaradan Prezident kimi qatılması müstəsna hal idi. Bu yüksək platformada dövlətimizin başçısına göstərilən ehtiram və diqqət də nəzərlərdən yayınmadı. Həmçinin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında müxtəlif ölkələrin liderlərinin, qurumların rəhbərlərinin Prezident İlham Əliyevlə görüşməkdə maraqlı olmaları heç də təsadüfi xarakter daşımırdı.

Bu gün dünyada ən çox sülhə ehtiyac duyulur. Ancaq müharibələrin dayandırılması, barışın bərqərar olması üçün indiyə qədər aparılan dialoqlar, keçirilən görüşlər, görülən tədbirlər nə yazıq ki, uğurlu bəhrəsini verməyib, silahlar susmayıb. Dünyanın hazırkı sabitlikdən uzaq acınacaqlı mənzərəsinin fonunda Cənubi Qafqazda Azərbaycanın qətiyyəti sayəsində yaradılan sülh mühiti qabarıq şəkildə ön plana çıxır.

Buna görədir ki, Prezident İlham Əliyevlə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində keçirilən görüşlərdə bölgədə sülh gündəliyinin irəlilədilməsində əldə olunan nailiyyətlərlə bağlı təbriklər qırmızı xətt kimi keçir.

Moldova Prezidenti Maya Sandu, Niderland Krallığının Baş naziri Dik Sxof, Fransa Prezidenti Emmanuel Makron Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələrə görə dövlətimizin başçısını təbrik etdilər.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen də dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Aİ rəsmiləri sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər.

Kopenhagendə Prezident İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyan ilə də görüşü olub. Görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

#### Qoca qitənin ümid yeri

Əlverişli geostrateji ərazidə yerləşməsi, zəngin sərvətlərə, ənənəvi və qeyri-ənənəvi enerji resurslarına malik olması ölkəmizi dünyanın cəlbedici məkanına çevirir. Malik olduğu üstün coğrafi mövqedən, zəngin sərvətlərindən ölkəmizin, xalqımızın maksimum fayda götürməsi üçün uzaqgörən siyasət həyata keçirən, infrastruktur baza yaradan Prezident İlham Əliyevin səylərinin nəticəsidir ki, Azərbaycan hazırda Şərqlə Qərbin nəqliyyat körpüsü, enerji qovşağı rolunu oynayır. Bu gün dünyanın əksər ölkələri, eləcə də ABŞ və Çin kimi nəhəng iqtisadi güc mərkəzləri respublikamızla hərtərəfli əməkdaşlıqda maraqlıdırlar. Bu məsələdə ələlxüsus Azərbaycanın etibarlı, güvənilən ölkə olmasının payı çoxdur. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayan Azərbaycanı, sözün əsl mənasında, qoca qitənin ümid yeri adlandırsaq, yanlışlığa yol verməriк.

Prezident İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşü zamanı regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğu vurğulandı, Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövləti Azərbaycan qazını alır. Sözügedən görüşdə Prezident İlham Əliyev bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

#### Qlobal nüfuz

Yürütdüyü hərtərəfli və uzaqgörən siyasət sayəsində Azərbaycanı dünyanın sayılıb-seçilən ölkələri sırasına yüksəldən Prezident İlham Əliyev nüfuzlu lider olaraq qlobal məsələlərin, problemlərin həllində birbaşa iştirak edir. Azərbaycan Prezidentinin daha ədalətli dünya nizamının qurulması naminə etdiyi mühüm çağırışları, bu istiqamətdə atdığı əməli addımlar vacib əhəmiyyət daşıyır və beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur.

Danimarkada Prezident İlham Əliyevlə Ukrayna Prezidenti Volodimir Zelenski arasındakı görüşdə Azərbaycanın bu ölkəyə humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olundu. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirdi.

Azərbaycan liderinin istənilən beynəlxalq toplantıda iştirakı daim diqqət mərkəzində olur, etdiyi çıxışlar, keçirdiyi görüşlər beynəlxalq siyasi şərhçilər, politoloqlar, KİV-lər tərəfindən izlənilir, təhlil edilir.

Bu mənada "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında Prezident İlham Əliyevə göstərilən xüsusi diqqət, məhz qarşı tərəflərin istəyi ilə görüşlərin keçirilməsi təbiidir. Bütün bunlar yürütdüyü siyasətdə ədalət və humanizmə əsaslanan, sözü imzası qədər kəsərli olan Prezident İlham Əliyevin Avropada yüksək nüfuza malik olmasına, ona ali səviyyədə göstərilən hörmət və ehtirama dəlalət edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Milli maraqların təmini üçün uğurlu platforma

**Prezident İlham Əliyevin Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün Kopenhagenə səfəri yeni geosiyasi konfiqurasiyada qlobal mühitdə milli maraqlar naminə mühüm hadisədir. Xüsusən ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmalar, o cümlədən Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Sazişin paraflanmasından sonra 7-ci Zirvə toplantısına dövlət başçımızın dəvət olunması və iştirakı Vətən müharibəsi və antiterror tədbirləri ilə yaratdığı yeni geosiyasi reallığın və bölgədə yeni konfiqurasiyanın Qərb qütbü tərəfindən birmənalı şəkildə qəbullanıldığını göstərməkdədir.**

Kopenhagen Sammitinin Azərbaycan Prezidentinin iştirak etdiyi ilk "Avropa Siyasi Birliyi" Zirvəsi olmadığını xatırladan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, dövlət başçısı bu ilin mayında Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında da iştirak və çıxış etmiş, hələ o zaman avromühitdə reallıqların ölkəmizin lehinə dəyişdiyi aydın müşahidə edilmişdi. Azərbaycan Prezidenti hələ 2022-ci ildə "Avropa Siyasi Birliyi"nin Praqa Sammitinə dəvət edilərkən, əsas məqsəd daha çox Azərbaycanın bölgədə özünün hərbi-siyasi qələbələri ilə yaratdığı yeni konfiqurasiyanın dəyişdirilməsinə yönəlmişdi. Daha konkret desək, Praqa Sammitində Fransa, Avropa İttifaqı və Ermənistan güclərini birləşdirərək Azərbaycanı siyasi məğlubiyyətə uğradacaqlarına əmin idilər, xüsusən ölkəmiz əleyhinə başlanan genişmiqyaslı qarayaxma və böhtan kampaniyası, o cümlədən ayrı-ayrı "beynəlxalq insan haqları təşkilatları", "nüfuzlu media resursları"nın bu prosesdə anti-Azərbaycan mövqe tutması, yaxud muzd hesabına tutmağa məcbur edilməsi ozamankı anti-Azərbaycan qütbünü Praqa Sammitində kifayət qədər arxayın davranmağa sövq edirdi. "Qərbin çoxsaylı "beyin mərkəzləri" Vətən müharibəsindən sonrakı keçidi Azərbaycan üçün uğursuz bir dövr kimi xarakterizə edərək Praqa Sammitində Azərbaycanın məğlubiyyətinə, yaxud hərbi-siyasi qələbələri ilə əldə etdiyi nəticələri "Avropa Siyasi Birliyi"nin masasında buraxıb gedəcəyinə dair kifayət qədər "əmin mövqe" ifadə edirdilər. Lakin möhtərəm cənab Prezident böyük diplomatik məharətlə nəinki Azərbaycanın siyasi məğlubiyyətinə imkan vermədi, üstəlik, sözün əsl mənasında, ustad dərsi keçərək Fransanı və Ermənistanı fiaskoya uğradıb, Nikol Paşinyanı və Emmanuel Makronu Azərbaycanın ərazi bütövlüyünü tanımağa və bunu dildə və yazılı formada ifadə etməyə məcbur etdi. Həmçinin Praqada Azərbaycana qarşı planı pozulan Fransa, Avropa İttifaqı və Ermənistan ölkəmizin ərazi bütövlüyünü tanımaqla bərabər, həm də bu məsələdə Alma-Ata deklarasiyasına istinad etməyə məcbur qaldılar. Təsadüfi deyil ki, həmin görüşə qədər Azərbaycanın məğlubiyyəti ilə bağlı çoxsaylı ssenarilər gündəmə gətirən Qərb mediası və imperializm maliyyəsi hesabına ayaqda qalan beyin mərkəzləri baş verənləri şahmat masasındakı "suqsvanq"a bənzətdiklərini gizlətmədilər. Praqa Sammiti eyni zamanda Azərbaycanın suverenliyinin təmin olunması istiqamətində mühüm siyasi platformalardan birinə çevrildi. Təsadüfi deyil ki, məhz



"Avropa Siyasi Birliyi"nin Praqa Zirvəsinin müsbət məqamlarından biri də bu oldu ki, o zaman bölgədə müvəqqəti şəkildə yerləşmiş Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması sürətləndirildi. Bir sıra rusiyalı ekspert və bəzi siyasətçilər, o cümlədən Ermənistandakı revanşist dairələr Ermənistanın və Fransanın Praqada tutmağa məcbur qaldığı mövqeni və səsləndirdikləri bəyanatları köklü şəkildə yanlış hesab edərək tənqidə məruz qoydular. Bu mənada, istisnasız olaraq demək mümkündür ki, Praqa görüşünü triumfa çevirən cənab İlham Əliyev bununla, əslində, "Avropa Siyasi Birliyi"nin Zirvə toplantılarının bizim üçün uğurlu platformaya çevrilə biləcəyini göstərmiş oldu", - deyə deputat əlavə edib.

O qeyd edib ki, anti-Azərbaycan dairələr üçün bu reallığı qəbul etmək asan olmayıb, hətta ötən il COP29 ərəfəsində ölkəmizə qarşı qarayaxma və çirkab kampaniyalarında ehtiva olunan və bir sıra dövlətlərin xarici siyasət idarələrinin birbaşa cəlb edildiyi çoxsaylı hücumlar müşahidə edildi. Hətta Azərbaycan təbii sərvətlərinə görə, daha dəqiq desək, qazıntı yanacağı ehtiyatlarına malik subyekt olmaqda "təqsirləndirildi". Lakin Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan nəinki öz mövqeyindən geri çəkilmədi, əksinə, Avropanın enerji təhlükəsizliyi və alternativ nəqliyyat dəhlizləri baxımından rolu artdı və BMT Baş Assambleyasının 80-ci sessiyasındakı tarixi çıxışında dövlət başçımız, sadə dildə desək, bu məsələ ilə bağlı ölkəmizin mövqeyini və enerji təchizatçısı rolunu daha da gücləndirəcəyini bəyan etməklə son nöqtəni qoydu.

B.Məhərrəmov deyib ki, çoxsaylı maneələrə baxmayaraq, cənab İlham Əliyevin zamanında realizə etdiyi infrastruktur layihələri, habelə ölkədə sabit və təhlükəsiz mühit, Azərbaycanın nəqliyyat-kommunikasiya habı rolunu sürətlə artırması fonunda Bakının mövqeyinin blef olmadığı, real imkanlara əsaslandığı isə artıq hər kəsə aydındır: "Qütbləşmənin dərinləşdiyi və ayırıcı xətlərin daha aydın gördündüyü bir zamanda Azərbaycanın istər geosiyasi, istər iqtisadi və ticari zəmində əməkdaşlıq körpüsü rolunu oynaması, habelə Orta dəhliz üzərindən daşımaların artdığı bir dövrdə Azərbaycanın bu infrastruktur layihəsinin ən etibarlı halqasına çevrilməsi, Kopenhagen Sammitinə dəvət olunması həm də Qərbin ölkəmizə ehtiyacının birmənalı göstəricisi kimi qiymətləndirilməlidir. Görünən odur ki, əvvəldə də qeyd etdiyimiz kimi, qütblərarası ziddiyyətlərin dərinləşdiyi, nəticədə orta güc dövlətlərinin rolunun artdığı bir məqamda Prezident İlham Əliyev ölkəmizin iqtisadi, siyasi, diplomatik və hərbi potensialını birləşdirərək ötən illər ərzində yaranan imkan və üstünlüklər sayəsində ərazi bütövlüyünü təmin etməyi bacarmaqla, üstəlik, bu reallığı Vaşinqtondan dünyaya qəbul etdirə bilməklə həm də de-fakto və de-yure Cənubi Qafqazın ən güclü dövləti, Xəzər regionunun isə nüfuzlu gücü olan Azərbaycanı hesablaşılan orta və regional təsir subyekti kimi təsdiqlədə bilib. Beynəlxalq ictimaiyyət, o cümlədən "Avropa Siyasi Birliyi"nin nüvəsini təşkil edən beynəlxalq subyektlər də yaxşı başa düşür ki, regionda Azərbaycanın müsbət mövqeyi olmadan hər hansı ciddi transregional layihə effektiv icra, yaxud hər hansı geosiyasi konfiqurasiya realizə oluna bilməz".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsipləri rəhbər tutaraq hərbi, siyasi və diplomatik güc və nüfuzla dəstəklənən, balanslaşdırılmış xarici siyasət kursunu uğurla həyata keçirməklə öz mövqeyini qarşıdakı uzun onilliklər ərzində sabit və dayanıqlı şəkildə təsbit edə bilib. Bu çərçivədə Çinlə imzalanmış "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" və Bakı ilə Pekinin bir sıra istiqamətlərdə vahid mövqedən ifadə etdiyi mövqe, habelə uzun bir dövr ərzində gərgin şəkildə özünü büruzə verən İran-Azərbaycan münasibətlərinin Prezident Məsud Pezeşkianın Bakı səfəri ilə tam yeni müstəviyə qədəm qoyması, o cümlədən ABŞ ilə demokratlar iqtidarı dövründə, demək olar ki, sıfırlanan münasibətlərin yenidən canlanması, hətta Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün İşçi Qrupunun yaradılması proseslərin ümumi zəmində məhz Azərbaycanın iradəsinə uyğun axarını göstərməkdədir. Daha dəqiq desək, Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında qazanılan hərbi-siyasi qələbələr, artan iqtisadi güc, suverenliyin tam şəkildə bərqərar olunması, ölkəmizin birmənalı müstəqil güc kimi çıxış etməsi, habelə beynəlxalq hüququn aliliyinə əsaslanan balanslaşdırılmış xarici siyasət kursu artıq nə Qərbə, nə də digər hər hansı gücə ölkəmizlə Bakının mənafelərinə zidd şəkildə davranmağa imkan verir. "Əvvəllər daxildən hansısa marionetlər vasitəsilə Azərbaycan hakimiyyətinə təzyiq etməyə çalışan, "insan haqları", "demokratiya" və "azadlıq"lar pərdəsi altında imperialist niyyətlər naminə ölkəmizə qarşı xaç yürüşlərinə ara verməyən Qərb artıq bu reallıqları dərk edərək ölkəmizlə münasibətlərdə öz maraqlarını təmin etmək üçün hansısa əlaltılarla "iş görməyin" səmərəli olmadığını, müzakirələrin və dialoqun birbaşa ev sahibi ilə effektiv olacağını, gec də olsa, anlamağa başlayıb.

İndi Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur və "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edir. Öz güc və iradəsi hesabına regionda işğal və təcavüzə son qoymaqla beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin aliliyini təmin edən, sülh və sabitliyi yalnız hərbi yolla deyil, həm də siyasi addımlarla de-fakto təmin etməyi bacarmış Azərbaycan Respublikasının Prezidentinin ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməyi ali məqsəd kimi "Avropa Siyasi Birliyi"nin ümumi platformasında bölüşəcəyi təcrübə mövcuddur. Azərbaycan yaxşı anlayır ki, bəzən niyyətlər uzlaşmasa da belə, "Avropa Siyasi Birliyi"ni təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş uğurlu hökumətlərarası platformaya çevirmək mümkündür. Məsələn, Prezident İlham Əliyevin Kopenhagendə moldovalı həmkarı Maya Sandu ilə görüşü, Vaşinqton razılaşmalarına rəsmi Kişinyovdan da dəstək alması, o cümlədən iki ölkə arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğunun vurğulanması, habelə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşü bu mənada çox uğurlu əmsal sayıla bilər", - deyə o bildirib.

Deputat qeyd edib ki, Kopenhagendə təmaslar sırasında ən diqqətçəkən məsələlərdən biri Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü sayıla bilər. Bakı və İrəvan arasında münasibətlərin nizamlanması istiqamətində proseslərə mane olmağa çalışan bəzi xarici dairələr, o cümlədən Ermənistan daxilində revanşist kəsimin cəhdləri fonunda Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətinin liderlər tərəfindən bir daha vurğulanması, Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarının bir daha təsdiq edilməsi önəmli gedişatdır. Xüsusən möhtərəm Prezidentin və Ermənistanın Baş nazirinin Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə etməsi, etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyinin vurğulanması və təmasları davam etdirmək barədə razılıq regionun de-fakto sülhün de-yure sülhə doğru intensiv şəkildə irəliləyiş perspektivlərini ortaya qoyur. Bu mənada, əminliklə demək olar ki, Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısını ölkəmiz üçün növbəti dəfə maraqların təmini üçün uğurlu müstəviyə çevirə bildi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığı qarşılıqlı maraqlar üzərində qurulub

### Bu əlaqələr həmçinin regionumuzda firavanlığa və sabitliyə xidmət edir

**Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam oldu. Xəbər verildiyi kimi, bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə, eləcə də Özbəkistan lideri dövlətimizin başçısına təbrik məktubu ünvanlayıblar.**

Ölkələrimiz arasında diplomatik əlaqələr 30 illik tarixə malik olsa da, qardaş xalqlarımızın əsrlərdən-əsrlərə və nəsillərdən-nəsillərə keçən birlik, həmrəylik, qarşılıqlı hörmət və dəstək ənənələri var. Azərbaycan- Özbəkistan hərtərəfli əlaqələrinin getdikcə inkişafında bu, bir növ zəmin rolu oynayır. Başqa bir vacib amil də bu iki ölkənin başçılarının dost, qarşılıqlı hörmət, inam və etimad münasibətləridir.

Bu gün həm Azərbaycan, həm də Özbəkistan təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkələrdir. Təsadüfi deyil ki, Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətləri ötən dövr ərzində dinamik inkişaf edərək ali səviyyəyə - müttəfiqlik pilləsinə yüksəlib. Keçən il imzalanan müqavilə iki müstəqil, güclü, suveren dövlət arasında təbii müttəfiqliyi rəsmiləşdirən və əbədiləşdirən mühüm tarixi sənəddir.

Dövlətimizin başçısı öz təbrik məktubunda bütün bunlari qeyd edərək yazıb: "Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir".

Qardaş Özbəkistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini xalqımız heç zaman unutmur. Özbəkistan Prezidenti azad olunmuş ərazilərimizə dəfələrlə səfər edib. Onun təşəbbüsü ilə Füzulidə özbək xalqının adından Mirzə Uluqbəy adına orta məktəb inşa edilib, Xankəndidə isə birgə tikiş müəssisəsi yaradılıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də öz məktubunda vurğulayıb ki, ötən dövrdə əməkdaşlığımızın salnaməsi yaddaqalan hadisələrlə zəngin olub, bütün sahələrdə əlaqələr ardıcıl şəkildə inkişaf edib. Əhatəli və uzunmüddətli münasibətlərimizi hərtərəfli möhkəmləndirməyə yönəlmiş hüquqi baza və səmərəli institusional mexanizmlər, çoxtərəfli formatlar yaradılmışdır. Şübhəsiz ki, Özbəkistan ilə Azərbaycan arasında mövcud olan ortaq qardaşlıq, bizi birləşdirən möhkəm dostluq bağları, müntəzəm xarakter almış ali səviyyəli səmərəli dialoqlarımız qardaş xalqlarımızın ümumi tərəqqisinə xidmət etməkdədir".

Özbəkistanın dövlət başçısı əmin olduğunu bildirib ki, qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığımız bütün prioritet istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, logistika, energetika, sənaye, kənd təsərrüfatı, turizm və mədəniyyət sahələrində bundan sonra da sürətlə inkişaf edəcək.

Qeyd edək ki, hazırda beynəlxalq gündəmdə maraq doğuran məsələlərdən biri də Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın yaradacağı "yaşıl dəhliz"dir. Belə ki, keçən il noyabrın 13-də COP29 çərçivəsində bu üç ölkənin dövlət başçısı "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalayıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasını da xatırladaq. Bu sazişə əsasən, Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Bir sözlə, Mərkəzi Asiya, Qafqaz, Avropa, Xəzər və Qara dəniz vahid enerji dəhlizi ilə birləşdiriləcək.

Xəzərin dibi ilə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın birlikdə yaradacağı "yaşıl dəhliz" üçün bu ölkələrin hər birinin böyük potensialı var. Azərbaycanın "yaşıl gündəliy"i artıq bütün dünyaya bəllidir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ən azı 6 qiqavatlıq "yaşıl enerji" - günəş, külək və su-elektrik enerjisi istehsal ediləcək.

Özbəkistanda da bu istiqamətdə genişmiqyaslı işlər aparılır, "yaşıl enerji"nin inkişafı üçün böyük proqram qəbul edilib. 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payının 40 faizə çatdırılması, həmçinin 4,2 qiqavatlıq enerjisaxlama sistemlərinin yaradılması planlaşdırılıb.

Özbəkistan mütəxəssislərinin bildirdiyinə görə, ölkədə 2025-ci ilin sonuna kimi 3,5 qiqavat enerji istehsal etmək gücünə malik külək və günəş-elektrik stansiyalarının istismara verilməsi planlaşdırılıb: "Yerli və xarici sərmayədarlar Özbəkistanın enerji sektoruna 25 milyard dollar həcmində sərmayə yatırıblar. 2024-cü ildə Özbəkistanda inşa edilən günəş və külək-elektrik stansiyaları 4 milyard 860 milyon kilovatsaat elektrik enerjisi istehsal ediblər. Azərbaycan, Özbəkistan və Qazaxıstanın arasında "Green Corridor" ("Yaşıl dəhliz") yaratmaq barədə razılıq sənədinin imzalanması iqtisadi, enerji, geosiyasi və regional əməkdaşlıq üçün olduqca əhəmiyyətlidir. Özbəkistan bu dəhliz vasitəsilə Avropanın enerji bazarına çıxmaq şansı əldə edir".

Məlumdur ki, hazırda Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionları vahid geosiyasi regiona çevrilməkdədir. Bu coğrafi müstəvidə gedən müsbət proseslərdə, əlbəttə ki, Azərbaycan ilə Özbəkistan arasında möhkəm əlaqələrin və səmərəli əməkdaşlığın mühüm rolu var.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan-Cənubi Koreya əməkdaşlığı yüksəliş dövrünü yaşayır

**Çağdaş dünyamızda məsafəcə xeyli uzaqda yerləşən elə bir xalq, elə bir ölkə yoxdur ki, o, Cənubi Koreya qədər Azərbaycanla tarixi, iqtisadi, mədəni və hətta mənəvi tellərlə sıx bağlı olsun. Təsadüfi deyil ki, hər iki dost xalqın öz keçmişi ilə fəxr etməyə yetərincə əsası vardır. Hər iki xalqı həmçinin zəhmətsevərlik, qonaqpərvərlik, vətənpərvərlik, qonşusuna əl tutmaq kimi yüksək ülvi insani keyfiyyətlər də birləşdirir. Koreya xalqının əldə etdiyi bütün nailiyyətlər onun qədim tarixə, mədəniyyətə, maddi və mənəvi potensiala malik olmasının məntiqi nəticəsidir. Çoxlarına məlumdur ki, beş min ildən çox tarixi keçmişə malik olan Koreya mədəniyyəti və ənənələri Konfutsi prinsipləri əsasında formalaşıb. Bu gün Koreyaya səyahət edən hər bir şəxs dünya irsinin 13 obyektinin, dünya mirasının 19 qeyri-maddi mədəni irsinin, UNESCO-nun Yaddaş İrsinə daxil olan 16 sənədli irsin şahidi ola bilər.**



Müasir dünya iqtisadiyyatından, elm tutumlu sahələrdən söhbət düşəndə ilk öncə gözlərimiz önündə həm də dünya bazarında özünəməxsus yer tutan Koreya canlanır. Bu diyar dünya ölkələri arasında qədim tarixi, özünəməxsus mədəniyyəti ilə fərqlənir. Bu gün 52 milyonluq Cənubi Koreya xalqı əfsanəvi kral Tanqun tərəfindən miladdan 2333 il əvvəl əsası qoyulmuş qədim dövlətinin yaranması gününü böyük coşqu və uğurlarla qeyd edirlər. Dövlətin əsasının qoyulması günü Cənubi Koreyada beş milli bayramdan biri və ən önəmlisidir.

Ötən əsrin 60-cı illərindən etibarən Cənubi Koreya unikal iqtisadi sıçrayış nəticəsində Şimal-Şərqi Asiyanın mərkəzində dünya ekspertlərini heyrətləndirən bir gücə çevrildi. Nəticədə bu ölkə yoxsul kənd təsərrüfatı iqtisadiyyatından texnologiya nəhənginə çevrildi. Bu, hakimiyyətin çevik və səmərəli fəaliyyəti, keçirilən islahatlarla bərabər Koreya xalqına xas olan çalışqanlıq və əqidə möhkəmliyi ilə mümkün oldu. Nəticədə ümum daxili məhsul 450 dəfə artdı. Hazırda ölkə iqtisadiyyatı Asiyada böyüklüyünə görə dördüncü yerdə qərar tutub. 2024-cü ilin sonuna olan məlumata görə, ölkədə ümumi daxili məhsul 2 faiz artıb.

Cənubi Koreya iqtisadiyyatı, əsasən, elektronika, tekstil və avtomobil kimi istehlak mallarının istehsalına, eləcə də ağır sənaye sektoruna: gəmiqayırma və polad istehsalına əsaslanır. Dövlətin rəhbərlik etdiyi sənayeləşmə iqtisadi inkişafın əsas mexanizminə çevrildi. Koreyanın nadir təbii sərvətlərə və çoxsaylı təhsilli işçi qüvvəsinə malik ölkə olduğunu dərk edən Cənubi Koreya hökuməti bir sıra qətiyyətli addımlar atdı. Prezident Pak Çon Hinin başçılıq etdiyi hərbi hökumət əmək tutumlu, ixrac yönümlü sənayeləşməni davam etdirərək iqtisadi islahatlar ("Koreya iqtisadi möcüzəsi") həyata keçirdi.

Ölkənin əsas təbii mineralları molibden, maqnezit, qrafit, barit, slyuda, flüorit, gümüş, dəmir, qurğuşun, sink, alüminium və kömürdür. Ən böyük sənaye sahələri elektronika, gəmiqayırma, avtomobil istehsalı, tikinti və tekstildir. Cənubi Koreya təhsil, insan potensialının inkişafı, demokratik idarəetmə və innovasiya sahələrində yaxşı nəticələr nümayiş etdirir. Elə bu xüsusiyyətlərinə görə, bu ölkə dünya iqtisadiyyatı üçün mühüm bir regiona çevrilib.

Cənubi Koreyanın beynəlxalq valyuta ehtiyatları 2025-ci ilin avqustuna olan məlumata görə, 416,29 milyard dollar təşkil edib. Onun qızıl ehtiyatları isə bu ilin martında 104,45 ton olub.

Cənubi Koreyanın əsas xarici ticarət tərəfdaşları Çin, ABŞ, Yaponiya, Honq Konq və digər ölkələrdir. Çin Cənubi Koreyanın ən böyük ticarət tərəfdaşıdır, ABŞ isə ikinci yerdədir. Cənubi Koreyanın ixracına, əsasən, yarımkeçiricilər, idxalına isə enerji məhsulları kimi sənaye xammalı və Çin, ABŞ və Yaponiyadan gələn məhsullar daxildir.

Azərbaycan ilə Cənubi Koreya arasında diplomatik əlaqələr 1992-ci ilin martında qurulub. Hər iki ölkə Asiyada Qarşılıqlı Fəaliyyət və İnam Tədbirləri üzrə Müşavirə çərçivəsində münasibətləri inkişaf etdirirlər. Ötən dövr göstərdi ki, Koreya Respublikası Azərbaycanın Şərqi Asiya siyasətində mühüm yer tutur və o da öz növbəsində Cənubi Qafqaz regionunda Azərbaycana böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bu ölkənin Cənubi Qafqaz regionunda ilk səfirliyi də məhz Azərbaycanda açılmışdır. Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi 2006-cı ilin martında, Azərbaycanın Cənubi Koreyadakı səfirliyi isə 2007-ci ilin martında təsis edilmişdir. Həmin dövrdən etibarən iki ölkə arasında münasibətlər həyatın müxtəlif sahələrində yüksələn xətlə davam edir. 2006-cı ildə Cənubi Koreya Prezidentinin Azərbaycana səfəri və 2007-ci ildə Azərbaycan Prezidentinin Koreyaya səfəri ilə iki ölkə arasındakı münasibətlər daha da inkişaf etmişdir.

O dövrdən etibarən dövlət və hökumət başçılarının, ayrı-ayrı nazirliklərin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, beynəlxalq forumlar çərçivəsində görüşləri və əlaqələri həyata keçirilir. Xüsusilə parlamentlərarası əlaqələr daha faydalı və əhəmiyyətli hal almışdır.

Hər il hökumətlərarası iqtisadi komissiyanın iclasları və siyasi dialoqlar həyata keçirilir. Komissiyanın 4-cü iclası 2024-cü ilin 2 aprel tarixində Bakı şəhərində keçirilmişdir. COP29 iqlim konfransının Bakıda keçirilməsi Azərbaycan və Koreyanı həm ikitərəfli, həm də çoxtərəfli təşkilatlar çərçivəsində əməkdaşlığı gücləndirmək üçün səyləri birləşdirməyə stimul verdi.

İki ölkə arasındakı əməkdaşlıqda səhiyyə, informasiya texnologiyaları, neft kimya sənayesi, nəqliyyat və turizm sahələrinə mühüm əhəmiyyət verilir. Hər iki tərəf həmçinin hərbi əməkdaşlıq çərçivəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirir.

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında dinamik iqtisadi-ticarət əlaqələri mövcuddur. Azərbaycan Cənubi Qafqazda Koreyanın ən böyük və mühüm iqtisadi-ticarət tərəfdaşıdır. Koreya, Azərbaycanın qeyri-neft sektoruna birbaşa xarici investisiya yatıran ən böyük ölkələrdən biridir.

Qarşılıqlı iqtisadi əlaqələrin şaxələndirilməsi əməkdaşlığın məzmununu daha da zənginləşdirir. Cənubi Koreya şirkətləri inamla Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoyurlar. Onlar həvəslə Azərbaycanda müxtəlif sahələrə, xüsusilə avtomobil sənayesi, rabitə, infrastruktur və inşaata investisiyalar yatırırlar. Koreya şirkətləri Bakı şəhərində yolların çəkilişində iştirak edir, nəqliyyat infrastrukturlarında, xüsusilə Bakı Metropoliteni və hava limanı layihələrində texnologiyalarını tətbiq ediblər.

Azərbaycan və Cənubi Koreya 2024-cü ildə "yaşıl inkişaf" və "yaşıl enerji" kimi perspektivli sahələrə diqqət yetirərək ikitərəfli əməkdaşlığı genişləndiriblər.

Azərbaycan və Cənubi Koreya arasında imzalanmış "İkitərəfli Ticarətin İnkişafı Sazişi" ticarətin davamlı artımında mühüm rol oynayır. Hər iki ölkənin bazarlarında qarşı tərəfin məhsullarına böyük tələbat və maraq vardır. Təbii ki, dövlətlər arasında siyasi ab-havanın yaxşı olması ticarət əlaqələrinin inkişafına da öz müsbət təsirini göstərir. 2024-cü ildə Azərbaycan ilə Cənubi Koreya arasında ticarət dövriyyəsinin həcmi 430 milyon dollar təşkil edib.

Azərbaycan tərəfi Cənubi Koreyadan xeyli miqdarda mal idxal edir. Onların sırasında, əsasən, dərman preparatları, ölçü, nəzarət, tibbi və cərrahiyə alətləri və aparatları, rentgen avadanlıqları, polietilen, propilen, neft-qaz kəmərləri üçün borular, boyanmış, laklanmış və ya plastiklə örtülmüş, eni 600 mm-dən çox olan yastı polad prokatı, məişət cihazları, optik və fotoqrafika, elektrik və elektronika avadanlıqları, nəqliyyat vasitələri, həmçinin onların ehtiyat hissələri, havanın kondisiyalaşdırılması üçün qurğuların və kondisionerlərin hissələri, kassa aparatları daxildir.

Azərbaycan tərəfi isə öz növbəsində Cənubi Koreyaya xam neft, neft emalı məhsulları, kimya məhsulları, əlvan metallar, qara metallar və məhsulları, kənd təsərrüfatı emalı məhsulları, elektrik mühərrikləri ilə təchiz edilmiş digər məişət maşınları, yataq ləvazimatları ixrac edir.

İki ölkə iqtisadi əməkdaşlıqla yanaşı, mədəniyyət və təhsil sahələrində də geniş əlaqələr qurmuşlar. Son illər təhsil və elm sahəsində şaxələndirilmiş fəaliyyət də öz bəhrəsini vermişdir. Təqaüd proqramı buna bir nümunədir. Koreya hökuməti tərəfindən verilən "Qlobal Koreya Təqaüdü" proqramı əsasında Azərbaycanlı tələbələr Cənubi Koreyada bakalavriat və magistr pillələrində təhsil alırlar.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda Koreya dilinə və ədəbiyyatına maraq son dərəcə artmışdır. Bakı Dövlət Universiteti "Uzaq Şərq dilləri və ədəbiyyatı" kafedrasında 2007-ci ildə Regionşünaslıq (Koreya üzrə) ixtisas açılmışdır. ADA Universiteti ilə Seul Milli Universiteti arasında əməkdaşlıq həyata keçirilir. INHA Universiteti mühəndislik, biznes inzibatçılığı, tibb, sosial elmlər sahəsində Cənubi Koreyanın lider universitetlərindən biridir. Reytinqə görə Cənubi Koreyada 189 universitet arasında 8-ci yerdə olan INHA Universitetində 60-a yaxın Azərbaycanlı tələbə təhsil alır.

2024-cü ilin oktyabrında Koreya Hökuməti tərəfindən "Kiçik Həcmli İnkişafa Rəsmi Yardım" proqramı çərçivəsində Gəncə Şəhər Birləşmiş Xəstəxanasına tibbi avadanlıqlar ianə edilib. Bu təşəbbüs Azərbaycanda həssas əhali qruplarının, xüsusən də uşaqların sağlamlığını qorumağa və onların tibbi xidmətlərə çıxışını yaxşılaşdırmağa yönəlib. İanə edilmiş avadanlıqlara defibrilyator, anesteziya aparatı, süni tənəffüs cihazı, xəstə monitoru, əməliyyat lampası, əməliyyat masası, elektrocərrahiyyə aparatı, cərrahi aspirasiya aparatı, alət dəsti, infuziya sistemi daxildir. Koreya hökuməti tərəfindən ianə edilən tibbi avadanlıqların ümumi dəyəri 500000 dollar təşkil edib.

2025-ci il iyunun 5-dən 8-dək Koreyanın paytaxtında keçirilən Seul Beynəlxalq Səyahət Sərgisində Azərbaycanın turizm potensialı nümayiş etdirilmişdir. Sərgidə ölkəmizi "Azərbaycan Hava Yolları" QSC və 5 milli tərəfdaş təmsil etmişdir. Sərgidə həmçinin Qarabağ və Şərqi Zəngəzur bölgələrinin turizm potensialı nümayiş etdirilmişdir.

Bakı şəhərində həmçinin Koreya dili və mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bu sahədə Bakıda Koreya Mədəniyyət Mərkəzinin keçirdiyi tədbirləri qeyd etmək olar. Həmçinin Koreya dili kursları, K-pop festivalları, Hanbok geyim günləri və film nümayişləri təşkil edilir.

Son dövrlərdə Azərbaycanın beynəlxalq nüfuzu artdıqca, Koreyada Azərbaycana olan maraq da yüksəlmiş, buna görə də Azərbaycanda biznes imkanları axtaran sahibkarlarla yanaşı, Azərbaycanın zəngin mədəniyyətini yaxından tanımaq üçün ölkəyə səfər edən turistlərin sayı da xeyli artmışdır. Koreyalı turistlər Azərbaycanın zəngin tarixi, rəngarəng mədəniyyəti, təbii mənzərələri, qonaqpərvərliyi və müasirliklə tarixiliyin unikal sintezini yüksək qiymətləndirirlər. Koreyanı ziyarət edən Azərbaycanlı turistlərin də sayı getdikcə artmaqdadır.

Qətiyyətlə vurğulamaq olar ki, Azərbaycan-Cənubi Koreya tərəfdaşlığı etibarlı və möhkəm özüllər üzərində bərqərar olmuşdur. Bu gün dinc inkişafa və iqtisadi tərəqqiyə xidmət edən bu əməkdaşlıq Zəngəzur yolu işə düşəndən sonra daha yüksək pilləyə qədəm qoyacaqdır. Şərqi Asiya ölkələrindən axıb gələn ticarət yüklərinin Avropaya çatdırılması və əksinə, Avropa mallarının Asiya ölkələrinə tranziti iki qitə ölkələrini və xalqlarını yüksək rifaha qovuşduracaqdır.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

# Avropa təhlükəsizlik axtarışında…

## İlham Əliyev Azərbaycanı "qoca qitə"nin nümunəvi ölkələrindən birinə çevirib



**Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.**

Prezident İlham Əliyevin dəvət edildiyi Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirdilər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək "dəyirmi masa"larda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunub.

Ümumiyyətlə, "Avropa Siyasi Birliyi" (ASB), 2022-ci ildə Avropa İttifaqı (Aİ) tərəfindən qurulan, "köhnə qitə"də siyasi və iqtisadi əlaqələri gücləndirmək məqsədi güdən bir təşəbbüs olaraq diqqət mərkəzinə çıxıb. Bu platforma, Avropa İttifaqı üzvü olmayan, lakin Aİ ilə sıx münasibətləri olan ölkələri də öz əhatəsinə alır. Birliyin əsas məqsədi regional təhlükəsizliyi təmin etmək, enerji təchizatını gücləndirmək, iqlim dəyişikliyi ilə mübarizə aparmaq və demokratik dəyərləri qorumaqdır.

### Qlobal liderliyi etiraf olunan siyasətçi

Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısına dəvət edilməsi, Danimarkada qarşı tərəflərin istək və xahişləri ilə görüşlərin keçirilməsi, əlbəttə ki, ilk növbədə Azərbaycan Prezidentinin qlobal nüfuzunun göstəricisi, eyni zamanda ölkəmizin beynəlxalq diplomatiyasının mühüm uğurları kimi qiymətləndirilməlidir. Yəni bu dəvət ölkəmizin dünya miqyasında artan nüfuzunu və strateji əhəmiyyətini bir daha təsdiqləyir.

İlham Əliyevin şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında yaxşı tanınan, qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən bütün qlobal hadisələrə qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Onu da qeyd etməliyik ki, İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısına dəvət edilməsi həm də ölkəmizin beynəlxalq diplomatiyasının gücləndirilməsi və strateji maraqlarının qorunması baxımından əhəmiyyətli bir addımdır. Azərbaycan rəhbərinə olan bu dəvət, həmçinin ölkəmizin Avropa ilə əlaqələrinin daha da möhkəmləndirilməsi və qlobal siyasi məsələlərdə daha aktiv iştirak etməsi üçün mühüm bir fürsətdir. "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

Azərbaycanın Avropa ilə əlaqələri uzun illər ərzində iqtisadi, enerji, ticarət və təhlükəsizlik sahələrində yüksələn xətlə inkişaf edib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan enerji təhlükəsizliyi məsələlərində Avropanın ən vacib tərəfdaşlarından birinə çevrilib. Xüsusilə Şərqi Aralıq dənizindən və Xəzər dənizindən gələn təbii qaz və neft ehtiyatları Avropanın enerji diversifikasiyasına töhfə verir.

İkinci Qarabağ müharibəsindən sonra isə yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirib. Yəni hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirib. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təklifləri verir.

Ümumiyyətlə, Azərbaycanın müasir tarixində Prezident İlham Əliyev ölkənin siyasi həyatında və beynəlxalq əlaqələrində mühüm rol oynamağa davam edir. Onun rəhbərliyi altında Azərbaycan yalnız regionda deyil, eyni zamanda qlobal miqyasda da mövqeyini gücləndirib, beynəlxalq əlaqələrdə əhəmiyyətli bir oyunçuya çevrilib.

İlham Əliyevin qlobal nüfuzu yalnız onun rəhbərliyi altında həyata keçirilən islahatlar və diplomatik uğurlarla deyil, həm də Azərbaycanın strateji mövqeyindən düzgün istifadə etməsi ilə əlaqədardır. Qlobal lider kimi o, Azərbaycanın inkişafına dair ardıcıl və məqsədyönlü siyasət həyata keçirərək, ölkəni beynəlxalq aləmdə güclü və nüfuzlu bir dövlətə çevirməyi bacarıb. Bu xüsusda Azərbaycan öz liderinin vizyonu ilə dünyada söz sahibinə çevrilməkdədir.

İlham Əliyevin artan qlobal nüfuzu bir tərəfdən Azərbaycanın strateji mövqeyini möhkəmləndirərkən, digər tərəfdən də onun liderlik keyfiyyətlərini və diplomatik bacarıqlarını önə çıxarır. Bu səbəbdən də əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısına dəvət edilməsi Azərbaycanın müstəqil xarici siyasətinin uğurudur. Azərbaycan öz milli maraqlarına uyğun olaraq, hər zaman beynəlxalq aləmdə balanslı və konstruktiv mövqe tutmağı bacarıb. Bu, ölkənin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsinin və nüfuzunun artmasının nəticəsidir.

### Sabitlik, tərəqqi və təhlükəsizlik adası

"Avropa Siyasi Birliyi"nin Zirvə toplantısının plenar iclaslarında və ondan sonra keçirilən "dəyirmi masa"larda əsas müzakirə olunan məsələlərdən biri də Avropadakı ümumi təhlükəsizlik vəziyyəti olub. Çünki qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılması əsas şərtlərdən biridir.

Bu gün dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir. Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur. Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir.

Lakin etiraf edilməlidir ki, bu gün dünyada geosiyasi güclərin müxtəlif maraqlar uğrunda apardıqları münaqişələr, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik və tərəqqi xüsusi diqqət çəkir. Beynəlxalq arenada təhlükəsizlik adası kimi tanınan ölkəmiz nizamı pozulan dünyaya Qarabağ Zəfəri ilə həm də ədalətin təmini, sülh və sabitliyin bərqərar olması ilə bağlı mükəmməl örnək göstərib. Torpaqlarının işğalı dövründə belə münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinin tərəfdarı olan Azərbaycanın yürütdüyü düşünülmüş və uzaqgörən siyasət son beş ildir bölgədə dayanıqlı sülh üçün mühüm zəmin formalaşdırıb.

Bir sözlə, Prezident İlham Əliyevin müstəqil, balanslaşdırılmış siyasəti həm də beynəlxalq sülhə və təhlükəsizliyə töhfə verir. Bunu Azərbaycan Prezidentinin irəli sürdüyü ideyalarda, qlobalmiqyaslı təkliflərdə, reallaşdırdığı beynəlxalq layihələrdə aydın şəkildə görmək mümkündür.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Dövlət Gömrük Komitəsinin sədri Naftalan şəhərində vətəndaşlarla görüşüb



**Bu gün Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov Naftalan şəhər Heydər Əliyev Mərkəzində Naftalan və Gəncə şəhərləri, Goranboy, Tərtər və Göygöl rayonlarından olan vətəndaşlarla görüşüb.**

DGK-dan AZƏRTAC-a bildirilib ki, Şahin Bağırov görüşdən öncə Naftalan şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Naftalan və Gəncə şəhərləri, Goranboy, Tərtər və Göygöl rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# Azərbaycanda içlərində hərbçi də olmaqla 4 nəfər dövlətə xəyanətdə ittiham olunur




**Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ibtidai istintaqı başa çatdırılmış cinayət işi üzrə toplanmış materiallar Bakı Hərbi Məhkəməsinə daxil olub.**

Əldə edilmiş məlumata görə, həmin şəxslər bir müddət əvvəl həbs ediliblər.

Məlumata görə, xarici xüsusi xidmət orqanının nümayəndələrinə kömək etməklə casusluq formasında dövlətə xəyanət etməkdə ittiham olunan İlkin Qənbərov və Vüsal Ağayev DTX tərəfindən görülmüş tədbirlər nəticəsində saxlanılaraq istintaqa cəlb olunmuşlar. Onlardan Vüsal Ağayev hərbçidir.

DTX tərəfindən davam etdirilən tədbirlər zamanı Tural Alıyev İordaniya Haşimilər Krallığı ərazisində, Məmməd Şərifov isə Türkiyə Respublikası ərazisində ələ keçirilərək Azərbaycan Respublikasına gətiriliblər.

Təqsirləndirilən şəxslərə qarşı AR Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham irəli sürülüb.

Bu maddənin sanksiyasında 12 ildən 20 ilədək və ya işin hallarından asılı olaraq ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

# Azərbaycan Avropada etibarlı tərəfdaş kimi qəbul edilir

**Prezident İlham Əliyevin Kopenhagendə baş tutan "Avropa Siyasi Birliyi" Sammitində iştirakı təkcə Cənubi Qafqaz üçün deyil, bütövlükdə Avropa üçün mühüm hadisə oldu. Bu gün qitə öz təhlükəsizliyini möhkəmləndirmək, enerji asılılığını azaltmaq və siyasi böhranlardan çıxış yolları axtarmaq zərurəti ilə üz-üzədir.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu baxımdan Azərbaycan real və praktik həllər təklif edən ölkə kimi ön plana çıxır. Sammitin əsas məqamlarından biri Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüş oldu. "Bu dialoq bir daha göstərdi ki, Bakı sülhə sadiqdir və onun əldə olunmasını yalnız ikitərəfli formatda görür. Azərbaycanın prinsipial mövqeyi ondan ibarətdir ki, regional məsələlər yalnız region ölkələri tərəfindən həll edilməlidir. Məhz sakit və səmimi şəraitdə, vasitəçilərsiz və xarici iştirakçılarsız keçirilən təkbətək görüşlərin danışıqların əsas formatına çevrilməsi də bu mövqeyin qəbul olunduğunu sübut edir. Artıq vasitəçilərə ehtiyac qalmır, bu isə prosesin daha dürüst və nəticəyönlü olmasına imkan yaradır. Hər hansı xarici müdaxilə və ya beynəlxalq oyunçuların prosesi siyasi alver predmetinə çevirmək cəhdləri isə sülh perspektivini yalnız uzaqlaşdırır",- deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan üçün sülh, sadəcə, bəyanat deyil, praktik seçimdir: kommunikasiyaların açılması, ərazi bütövlüyünün qarşılıqlı tanınması, etimadı gücləndirən konkret addımlar. Məhz bu yanaşma Cənubi Qafqazda uzunmüddətli sabitliyi mümkün edir.

Prezident İlham Əliyevin, həmçinin Avropanın aparıcı liderləri və Avrokomissiya nümayəndələri ilə bir sıra görüşlər keçirdiyini xatırladan S.Fətəliyeva deyib ki, gündəliyin əsas mövzuları - "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, "yaşıl enerji" sahəsində əməkdaşlıq və yeni nəqliyyat marşrutlarının formalaşdırılması idi. Bunlar təkcə iqtisadi layihələr deyil, eyni zamanda, Avropanın yeni təhlükəsizlik sisteminin elementləridir.

Deputatın sözlərinə görə, Bakı faktiki olaraq Avropanın enerji və nəqliyyat dayanıqlılığının əsas təminatçısı kimi statusunu möhkəmləndirir: "Azərbaycan etibarlı tərəfdaş, milli maraqlarını regional və Avropa sabitliyi ilə uzlaşdıran dövlət kimi qəbul olunur. Bu gün aydın görünür ki, Azərbaycan Avropaya yalnız enerji resursları və tranzit imkanları daşımır, o, həm də hazırda ən çox ehtiyac duyulan dəyərləri təklif edir - sabitlik, ardıcıllıq və möhkəm siyasi iradə. Avropanın bir çox ölkəsi daxili böhranlarla üzləşdiyi, beynəlxalq institutların imkanlarının məhdud göründüyü bir vaxtda məhz Azərbaycan kimi tərəfdaşlar yeni həll yollarının formalaşmasında dayağa çevrilir. Azərbaycan artıq təkcə regional güc mərkəzi deyil, həm də bütöv Avropanın gələcəyini müəyyənləşdirən ölkədir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Qeyri-neft məhsulları ixracı son altı ildə iki dəfə artıb

**"Hazırda ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payı 68 faizə çatıb və ilin sonunda bu rəqəmin 70 faiz olacağı proqnozlaşdırılır". Bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda keçirilən II Milli Rəqabət Forumunda çıxışı zamanı demişdir.**



İcra edilən islahatlar ölkədə münbit sərmayə mühiti yaratmaqla bu sektora xarici investisiyaların cəlb olunmasının önünü açmışdır. Görülən tədbirlər nəticəsində bu sektora yönəldilən investisiyaların həcmi artaraq 8,2 milyard manata çatmışdır. Cari ilin yanvar-avqust aylarında əsas kapitala xarici mənbələrdən yatırılan investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz artmışdır. Kapital qoyuluşunun artması qeyri-neft sektorunda sahibkarlığın inkişafına da müsbət təsir göstərmişdir. Hazırda bu sektorda sahibkarların payı 81 faizdir.

Qeyri-neft sektoruna investisiya qoyuluşunun artması istehsal və ixrac imkanlarını xeyli artırmışdır. 2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7 faiz artmış və onun ümumi iqtisadiyyatda payı 68 faizə yüksəlmişdir. Son 6 ildə, demək olar ki, qeyri-neft məhsulları ixracı iki dəfə artmışdır. Bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsi və ixrac imkanlarının artmasının müsbət təsirinin göstəricisidir.

Yeri gəlmişkən qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın sentyabr sayını təqdim edib. İcmala əsasən, bu ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2,4 milyard dollar təşkil edib. Qeyd olunan dövrdə yeyinti məhsulları üzrə ixracın dəyəri 774,2 milyon dollara çatıb ki, bu da 23 faizə yaxın artım deməkdir. İxrac olunan şəkər ötən ilin müvafiq dövrü ilə müqayisədə 58,2, meyvə-tərəvəz 32,2, kimya sənayesi məhsulları 24,3, pambıq iplik 16,3, çay 2,1, qara metallar və onlardan hazırlanan məmulatlar 0,2 faiz yüksək olub. Hesabat dövründə aqrar məhsullar üzrə ixrac 28,2, aqrar-sənaye məhsulları üzrə ixrac isə 4,7 faiz artıb. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının ixracının dəyəri 21,3 faiz artaraq 823,9 milyon dollara çatıb.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid məhsulların siyahısında qızıl birinci, pomidor (tomat) ikinci, pambıq lifi üçüncü, avqust ayı ərzində isə ixrac edilmiş qeyri-neft sektoruna aid məhsulların siyahısında şaftalı birinci, qızıl ikinci, pambıq lifi üçüncü olub. Cari ilin 8 ayında Rusiya Federasiyası, Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna ölkəmizdən ən çox qeyri-neft məhsulları alan ölkələrdir.

Cari ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 41 ölkəyə 11,6 milyon dollar dəyərində telekommunikasiya xidməti göstərib. "Azərkosmos"un xidmət ixracından gəliri onun ümumi gəlirlərinin 66 faizini təşkil edib. Təkcə bu ilin avqust ayında "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət göstərib. 8 ayda peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,1 milyon dollarla Birləşmiş Krallıq, 2,3 milyon dollarla Lüksemburq, 569,5 min dollarla Nigeriya, 537,9 min dollarla Türkiyə, 530,4 min dollarla İsveç qərarlaşıb.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# NASCO XXVIII Respublika Elmi Konfransına hazırlıq necə gedir?

**Azərbaycanda elmi mühitin inkişafına, gənc tədqiqatçıların özünüifadəsinə və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə mühüm töhfə verən ənənəvi elmi platformalardan biri də doktorant və gənc alimlərin iştirakı ilə keçirilən NASCO - Respublika Elmi Konfransıdır. Artıq 28-ci dəfə təşkil olunacaq bu nüfuzlu tədbir 16-17 dekabr 2025-ci il tarixlərində baş tutacaq. Builki konfrans ölkə həyatında xüsusi əhəmiyyət daşıyan "Konstitusiya və Suverenlik İli"nə həsr olunub.**








Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili siyasəti şöbəsinin baş məsləhətçisi **Afət Sadıqova** "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, konfrans hər il ənənəvi olaraq müxtəlif ali təhsil müəssisələrinin bazasında nazirliyin təşkilatçılığı ilə reallaşır.

Onun sözlərinə görə, tədbirin məqsədi gənc tədqiqatçıların elmi fəaliyyət nəticələrini müzakirəyə çıxarmaq, onların təşəbbüskarlığını və yaradıcılıq bacarıqlarını stimullaşdırmaqdır: "Gənclər burada yalnız öz elmi nailiyyətlərini təqdim etmir, həm də digər tədqiqatçıların işləri ilə tanış olur, fikir mübadiləsi apararaq yeni elmi əməkdaşlıqlar üçün zəmin yaradır. Konfransa həm ölkə daxilində, həm də xaricdə fəlsəfə doktoru proqramında təhsil alan doktorant və dissertantlar, eləcə də müdafiə ərəfəsində olan gənc tədqiqatçılar müraciət edə bilərlər".

Afət Sadıqova qeyd edib ki, təqdim olunan tezislər yalnız yeni elmi işlərdən ibarət olmalı, plagiatdan keçirilməsinə dair arayış əlavə edilməlidir. Seçim prosesində yaradıcılıq qabiliyyəti və əsaslandırılmış yeni ideyaları olan müəlliflərə üstünlük veriləcək. Bu il ilk dəfə olaraq fərqlənən məqalələrin "Scopus" bazasında indekslənən beynəlxalq jurnallarda dərcinə imkan yaradılacaq.

Nazirliyin nümayəndəsi əlavə edib ki, yalnız panel iclaslarda məruzə edən iştirakçılara sertifikat təqdim olunur və onların tezisləri "Konfrans materialları" toplusunda dərc edilir.

Builki tədbirə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) evsahibliyi edəcək. Universitetin tədris işləri üzrə prorektoru **Rza Məmmədov** vurğulayıb ki, NASCO artıq özünəməxsus ənənə və nüfuza malik elmi forum kimi formalaşıb: "Hər il bu platformanı təkmilləşdirməyə çalışırıq. Bu il ilk dəfə olaraq yalnız çıxışçılar deyil, dinləyicilər də qeydiyyatdan keçə biləcəklər. Bu, konfransı daha geniş auditoriyaya açır və elmi müzakirələrə daha çox gənci cəlb etməyə xidmət edir. Bundan başqa, müraciət zamanı elmi istiqamətin ayrıca göstərilməsi sessiyaların təşkilini xeyli asanlaşdıracaq".

Prorektor həmçinin konfransın tanıtımının daha geniş miqyasda aparıldığını, sosial şəbəkələrdə ayrıca səhifələr yaradıldığını qeyd edib. Onun sözlərinə görə, builki yeniliklərdən biri də Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) konfransa inteqrasiyasıdır: "Məqalə müəlliflərindən araşdırmalarının hansı DİM-lərlə səsləşdiyini göstərmələri tələb olunur. Bu yanaşma mövzuların qlobal çağırışlarla uzlaşmasını nümayiş etdirir".

Rza Məmmədov əlavə edib ki, builki konfransa təqdim edilən məqalələrin 40 faizi ingilis dilindədir ki, bu da tədbirin artıq beynəlxalq platformaya çevrildiyini göstərir. Ən çox müraciət edilən sahə iqtisadiyyat olsa da, təbiət, texnika, İKT, mühəndislik və sosial-humanitar elmlər üzrə də çoxsaylı məruzələr qəbul edilib.

Onun sözlərinə görə, plagiat göstəricisi 25%-dən çox olan məqalələr qəbul edilməyəcək.

Qeyd edək ki, elm və təhsil naziri Emin Əmrullayevin əmri ilə builki konfransın panel sessiyalarından biri akademik Yusif Məmmədəliyevin elmi irsinə həsr olunacaq.

***Yetər KƏRİMLİ***

# "Əsrlərin şahidi Gəncə" adlı fotosərgi nümayiş olunur



**Gəncədə şəhər icra hakimiyyətinin, Mədəniyyət Nazirliyinin, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin, "Bakı Abadlıq Xidməti" MMC-nin, Azərbaycan Fotoqrafları Birliyinin (AFB) və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə "Əsrlərin şahidi Gəncə" adlı fotosərgi açılıb.**

Filarmoniyanın Urban Mərkəzində təşkil olunan sərginin açılışında şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, AMEA Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev, idarə, müəssisə, təşkilat rəhbərləri, incəsənət xadimləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər. Niyazi Bayramov çıxış edərək diqqətə çatdırmışdır ki, şəhərin tarixində ilk dəfə olaraq Gəncə III MDB Oyunları kimi mötəbər tədbirə evsahibliyi edir: "Sentyabrın 28-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə həm oyunların, həm də Gəncə Şəhər Stadionunun möhtəşəm açılışı olmuşdur. Yarışlar öncəsi şəhərdə genişmiqyaslı abadlıq, quruculuq və bərpa işləri aparılmışdır ki, bu da sakinlərin və qonaqların rahatlığını təmin etmişdir". ŞİH-in başçısı əlavə etmişdir ki, Prezidentin tapşırığı ilə bu işlərin mühüm hissəsi sərginin təşkilatçılarından olan "Bakı Abadlıq" MMC tərəfindən həyata keçirilmişdir: "Sərgidə nümayiş olunan fotolarda da məhz son aylar Gəncədə görülən abadlıq işlərindən sonra dəyişən Gəncənin simasını görmək mümkündür".

Sonra söz iştirakçılara verilmişdir. Qeyd edilmişdir ki, sərgi şəhərin tarixi yaddaşına bir baxış, keçmişlə bu gün arasında bir körpüdür. Fotoqrafiya həm yaddaşdır, həm də tarixdir. Fotolarda Gəncənin keçmişini və bu gününü görməklə şəhərin necə dəyişdiyini hiss etmək mümkündür. Sərginin məqsədi şəhərin zəngin irsini və ilk azərbaycanlı fotoqrafların yaradıcılığını gələcək nəsillərə foto sənəti vasitəsilə ötürməkdir.

"Gəncə tarixinin cizgiləri" adlı filmin nümayişindən sonra sərgiyə baxış keçirilmişdir. Qonaqlar Gəncənin müxtəlif dövrlərdə çəkilmiş fotoşəkilləri ilə tanış olmuşlar. Sərginin diqqətçəkən məqamlarından biri də Azərbaycanın ilk fotoqrafı, 1880-1910-cu illərdə Gəncədə fəaliyyət göstərmiş Məşədi Abbasəli Abbasovun yaradıcılığının təqdimatıdır. Onun XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid orijinal fotoları ilk dəfə geniş ictimaiyyətə təqdim olunur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Göytəpə şəhərində Heydər Əliyev Fondu tərəfindən inşa olunan məktəb binası istifadəyə verilib

**Cəlilabad rayonunun Göytəpə şəhərində yeni məktəb binası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Göytəpə şəhərində yerləşən Vasif Hüseynov adına 2 nömrəli tam orta məktəb üçün yeni binanın inşasına Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin oktyabr ayında başlanılmışdı. Qısa müddətdə tikinti işləri başa çatdırılıb, müasir tələblərə cavab verən təhsil ocağı inşa olunub.**





Üçmərtəbəli, iki korpusdan ibarət məktəb binası 625 şagird yerlikdir. Burada müasir standartlara uyğun sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, texnologiya kabinetləri, müəllimlər otağı, texniki otaqlar, qarderob, kitabxana, yeməkxana, akt, idman və gimnastika zalları, açıq mini stadion - idman meydançası fəaliyyət göstərəcək.

Məktəb zəruri mebel və avadanlıqlarla təchiz olunub, fənn kabinetləri və laboratoriyalar isə müasir əyani vəsaitlərlə təmin edilib. Bundan əlavə, məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Yeni məktəb binasının istifadəyə verilməsi ən çox müəllim heyətini və şagirdləri sevindirib. Onların fikrincə, yaradılan müasir təhsil mühiti dərslərin daha keyfiyyətli keçirilməsinə şərait yaradacaq, eyni zamanda şagirdlərin müxtəlif istiqamətlərdə bilik və bacarıqlarının inkişafına geniş imkan açacaq.

Məktəbin şagirdi Aybəniz Əkbərova sevincini belə ifadə edib: "Mənim üçün ən sevincli günlərdən biridir. Çünki artıq yeni, geniş və rahat dərs otaqlarında oxuyacağıq. Burada hər şey müasir tələblərə uyğundur, laboratoriyalar, idman zalı, kitabxana bizə dərslərimizi daha yaxşı oxumaq üçün böyük imkanlar yaradır. Mən bu məktəbdə daha yaxşı nəticələr göstərmək və gələcəkdə ölkəmə layiqli vətəndaş olmaq istəyirəm".

Məktəbin müəllimi Nuranə Eynullayeva isə bildirib ki, belə şəraitdə dərs keçmək hər bir pedaqoqun arzusudur: "Müasir avadanlıqlarla təmin olunmuş sinif otaqları, fənn kabinetləri və laboratoriyalar dərslərin keyfiyyətini yüksəldəcək. Uşaqlar artıq bilikləri yalnız nəzəri şəkildə deyil, praktiki olaraq da öyrənə biləcəklər. Biz müəllimlər üçün də bu məktəbin istifadəyə verilməsi böyük bayramdır".

Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov qeyd edib ki, istifadəyə verilən bu təhsil ocağı bölgənin ən müasir məktəblərindən biri olacaq. "Burada yaradılan şərait şagirdlərin həm dərslərdə, həm də əlavə fəaliyyətlərdə uğur qazanmasına geniş imkanlar açır. Əminik ki, bu məktəb həm müəllimlərin səmərəli fəaliyyətinə, həm də şagirdlərin yüksək bilik və bacarıqlara yiyələnməsinə böyük təkan verəcək", - deyə o vurğulayıb.

# Şəmkirdə Dünya Ahıska Türkləri Birliyinin baş katibi ilə görüş keçirilmişdir

**Şəmkir Rayon İcra Hakimiyyətində Dünya Ahıska Türkləri Birliyinin baş katibi Fuat Uçarın rəhbərlik etdiyi nümayəndə heyəti və Milli Qəhrəman İsgəndər Aznaurovun ailə üzvləri ilə görüş keçirilib.**



Görüşdə rayonun zəngin mədəniyyəti, kənd təsərrüfatı, sənaye potensialı və bu istiqamətdə həyata keçirilən çoxşaxəli layihələrdən söhbət açan RİH-in başçısı R.Tağıyev Şəmkirdə məskunlaşan Ahıska türkləri ilə bağlı həyata keçirilən sosialyönümlü işlər haqqında da söhbət açmışdır. Qeyd etmişdir ki, Ahıska türkləri tarixin acı sınaqlarını dəfələrlə öz talelərində yaşamış xalqdır: "Xalqımızın Ümummilli Lideri Heydər Əliyev həmişə ahıskalıların faciəli taleyinə, problemlərinə xüsusi həssaslıqla yanaşmış, onların milli iradə və əzmkarlığını, mübarizliyini, zəhmətsevərliyini, tarixi-etnik kökə bağlılığını yüksək qiymətləndirmişdir. Məhz Ulu Öndərin və Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Ahıska türklərinin yaşadıqları qəsəbə və kəndlər, təsərrüfatlar hərtərəfli inkişaf dövrünü keçmişdir. Azərbaycan dövləti indi də bu istiqamətdə siyasətini davam etdirir".

Fuat Uçar səmimi görüşə görə təşəkkür edərək Şəmkirə səfərlərinin məqsədini açıqlamışdır. Bildirmişdir ki, Ahıska türkləri Azərbaycana gəldikləri ilk illərdən həm dövlətin, həm də Azərbaycan xalqının diqqət və qayğısını hər zaman hiss etmiş, Azərbaycanı öz vətənləri saymışlar: "Ahıskalılar Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində 92 şəhid vermişlər. İsgəndər Aznaurova Birinci Qarabağ müharibəsi zamanı göstərdiyi şücaətlərə görə şəhadətindən sonra Milli Qəhrəman, Murad Əflətova isə 44 günlük savaşda igidliyinə görə Vətən Müharibəsi Qəhrəmanı adı verilmişdir".

İsgəndər Aznaurovun görüşdə iştirak edən övladları atalarının adının əbədiləşdirilməsi, xatirəsinin yaşadılması üçün görülən işlərə görə təşəkkürlərini bildirmişlər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Hədəflərə çatmaq üçün vahid tarif və "darboğaz"larla bağlı qərar qəbul edilib

**Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM - Orta dəhliz) qlobal ticarətdə əsas dəhlizlərdən birinə çevrilib. Bu da səbəbsiz deyil. Hazırda Orta dəhliz mövcud beynəlxalq ticarət marşrutları içərisində həm təhlükəsiz, həm də iqtisadi cəhətdən ən səmərəlisidir. Bununla yanaşı, dəhliz çox geniş coğrafiyanı əhatə edir, yəni daha çox ölkələrin bu marşrutdan istifadə etmək imkanı var.**



Azərbaycan Orta dəhlizlə bərabər, "Şimal-Cənub" marşrutunda da qovşaq ölkə olduğu üçün xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz bu dəhlizin səmərəli fəaliyyət göstərməsində siyasi təşəbbüslə çıxış etməklə yanaşı, infrastruktura ən çox sərmayə qoyan dövlət kimi də qəbul olunur. Bununla bağlı Prezident İlham Əliyev "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına göndərdiyi müraciətində demişdir: "Biz Orta dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırmışıq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması - bütün bunlar Orta dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır. Orta dəhlizin Azərbaycan seqmentində infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin genişləndirilməsi prosesi hazırda da davam etməkdədir".

Xəbər verildiyi kimi, TBNM ölkələrinin nümayəndələri Almatıda keçirilən "New Silk Way" forumu çərçivəsində dəhlizin inkişafına yönələn bir sıra mühüm sazişlər imzalamışlar. Sazişlər Qazaxıstanın nəqliyyat naziri Nurlan Sauranbayev, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, həmçinin Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Gennadi Arveladze tərəfindən imzalanmışdır.

Öncə bir məsələyə aydınlıq gətirək. Məlumdur ki, dünyada logistika marşrutları ilə bağlı "darboğaz" termini işlədilir. Bəs "darboğaz" nə deməkdir? Mütəxəssislər marşrut üzrə hər hansı bir yerdə yüklərin tranziti zamanı texniki və təbii maneələr üzündən tıxac yaradan və marşrutun səmərəliliyini azalda bilən əraziyə "darboğaz" deyirlər. Elə buna görə də qeyd etdiyimiz tərəflər "TBNM-də "darboğaz"ların aradan qaldırılması üzrə Tədbirlər Planı"nı imzalamışlar. Bu plan Qazaxıstan, Azərbaycan və Gürcüstanın dəmir yolu idarələrinin razılaşdırılmış fəaliyyətini, həmçinin EBRD və "Aktau Beynəlxalq Dəniz Ticarət Limanı" SC arasında liman infrastrukturunun maliyyələşdirilməsi və STS kranlarının alınmasına dair sazişi nəzərdə tutur. Əldə olunan razılaşma iştirakçı ölkələr arasında əməkdaşlığın gücləndirilməsinə, daşımaların müntəzəmliyinin təmin edilməsinə və Orta dəhlizin tranzit potensialının artırılmasına əlavə təkan verəcək.

Tranzit tarifi hər bir qlobal ticarət marşrutunda yükgöndərənləri ən çox maraqlandıran məsələdir. Çünki hər bir subyekt çalışır ki, daşınmalar zamanı nəqliyyat xərcləri az olsun. Bu səbəbdən ölkəmizin apardığı tranzit siyasətinin əsas istiqamətlərindən biri də tərəfdaş ölkələrlə birlikdə vahid tarifin müəyyənləşdirilməsinə nail olmaq idi. Qazaxıstanda keçirilən tədbirdə bu razılaşma əlavə edilmişdir. Belə ki, Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolu operatorları Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun bütün marşrutu boyunca vahid və uzunmüddətli tarif müəyyən etmək barədə razılaşmışlar.

Tərəflər eyni zamanda liman, dəmir yolu və logistika infrastrukturunun inkişafı, "darboğazlar"ın aradan qaldırılması və prosedurların rəqəmsallaşdırılması üzrə birgə fəaliyyətləri əlaqələndirmək barədə razılığa gəlmişlər. Bu razılaşma Orta dəhlizin davamlı, rəqabətqabiliyyətli və strateji baxımdan əhəmiyyətli marşrut kimi inkişafında yeni mərhələnin başlanğıcı olacaq.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov Qazaxıstanda keçirilən biznes-forum çərçivəsində "Avrasiya məkanında dəmiryol infrastrukturunun inkişafı" adlı panel müzakirələrində çıxışı zamanı deyib ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyə arasında yükdaşımaların əsas xətti olaraq regional nəqliyyat sistemində mühüm rol oynayır. Onun sözlərinə görə, BTQ və Zəngəzur dəhlizi (TRIPP) birlikdə regionun tranzit imkanlarını artıraraq ticarət axınlarını dəstəkləyən vahid şəbəkə yaradacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## 4 Oktyabr Cəbrayıl Şəhəri Günüdür

**Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun gücü, qəhrəmanlığı, şücaəti ilə düşmən tapdağından ilk azad olunan şəhərin - Cəbrayılın azadlığa qovuşmasından 5 il ötür.**

# Azadlığına qovuşan ilk şəhər

## Düşmənin xarabalığa çevirdiyi Cəbrayılda bu gün həyat canlanır

Azərbaycanın şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində uzun illər erməni işğalı altında olan torpaqlarımız öz sahiblərinə qaytarıldı. Prezident İlham Əliyevin də hər zaman vurğuladığı kimi, bir qarış torpağımız da düşməndə qalmadı.

Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri müharibənin elə ilk günündəcə erməni əsarətindən xilas oldu, oktyabrın 3-də isə rayonun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, 4 oktyabr tarixində isə Cəbrayıl şəhəri ilə yanaşı, Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndləri Azərbaycan Ordusu tərəfindən işğalçılardan təmizləndi. Azadlığına qovuşan ilk şəhərin müjdəsi isə ordumuzda əzmi, gücü artırmaqla bərabər xalqda qüdrətli Silahlı Qüvvələrimizə olan inamı daha da artırdı. Beləliklə, xalq-ordu birliyi əsgər və zabitlərimizə güc verərək onları növbəti qələbələrə ruhlandırdı.



Uğurla aparılan döyüş əməliyyatları nəticəsində Cəbrayıl şəhəri və rayonun 90 kəndi işğaldan azad edildi. Həmçinin Azərbaycanın İranla dövlət sərhədinə nəzarət qismən bərpa edildi.

**Tarixin izi ilə:** *1930-cu ildə təşkil edilən Cəbrayıl rayonu 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilib. Rayon 1993-cü il avqustun 23-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildi. İşğal zamanı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət idi.*

*1994-cü il 5 yanvar tarixində Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı kəndi işğaldan azad edilsə də, kənddə yaşayış mümkün olmayıb. 2016-cı il Aprel döyüşlərində Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi işğaldan azad edildikdən sonra Cocuq Mərcanlı kəndi ordumuzun nəzarətinə keçib.*

*Zəfərə gedən yolun başlanğıcı hesab edilən Aprel döyüşləri işğal dövründən sonrakı ilk genişmiqyaslı döyüş əməliyyatları idi. Dörd gün davam edən əməliyyatlarda Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqelərini düşməndən azad etdi.*

### Cəbrayıl igidləri

Cəbrayılın azad olunması qələbənin qazanılmasında böyük əhəmiyyət daşıdı. İllərlə bu ərazilərdə möhkəmlənmiş düşmən mövqelərini, istehkamlarını aşmaq Azərbaycanın əsgər və zabitlərindən xüsusi bacarıq, şücaət tələb edirdi. Bu baxımdan Zəfərdən sonra Vətən müharibəsi ilə əlaqədar təsis edilən ali mükafatlar sırasında "Cəbrayılın azad olunmasına görə" medalı da xüsusi yer aldı. Dövlət başçısı tərəfindən bu yolda canı, qanı bahasına döyüşərək şəhadətə yüksələnlər, həmçinin qazilərimiz mükafatlandırıldı. Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrin 22797 hərbi qulluqçusu "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

### Azad torpaqlara ilk səfər

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunan əzəli torpaqlarımıza ilk səfəri də Cəbrayıldan başlayıb. Ölkə rəhbəri Azərbaycan bayrağını işğaldan azad olunmuş ərazilərdə ilk dəfə Cəbrayıl şəhərində və Xudafərin körpüsündə qaldırdı.

Bu gün bizi Şuşaya rahat və qısa vaxtda çatdıran Zəfər yolunun təməlinin qoyulması elə bu ilk səfərdən başladı. Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, yol infrastrukturu ilə yanaşı, işğaldan azad olunmuş hər bir rayonda bərpa və yenidənqurma işlərinə başlandı. Böyük quruculuq işləri bu gün də sürətlə davam edir. Qarabağ və Şərqi Zəngəzurun hər tərəfində tikinti və yenidənqurmanın, abadlaşdırmanın şahidi oluruq. Elə bunun nəticəsidir ki, Böyük qayıdış proqramı uğurla icra olunur.

### Yenidən qurulan Cəbrayıl

27 il ərzində ermənilər tərəfindən dağıdılan Cəbrayıl artıq 5 ildir ki, yenidən qurulur və bərpa olunur. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard dollar məbləğində ziyan dəyib. Dəyən ziyanı isə Azərbaycan öz hesabına aradan qaldırır. Digər rayonlarda olduğu kimi, Cəbrayılda da quruculuq işlərinə maneə yaradan əsas səbəb Ermənistan tərəfindən basdırılan minalardır. Bu günədək basdırılan minaların xəritəsi verilmədiyi üçün bu, həm orada çalışanların, həm də rayona səfər edənlərin həyatı üçün təhlükə yaradır. Elə buna görə də Vətən müharibəsindən sonra da vətəndaşlarımız mina terrorunun qurbanına çevrilib.

Cəbrayılda bir sıra fabrik və zavodların təməli qoyulub ki, bu da yeni iş yelərinin açılması və şəhərə köçən əhalinin məşğulluğunun təmin edilməsi baxımdan mühüm əhəmiyyətə malikdir. Rayonda KAMaz ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyulub. 200 hektar ərazini əhatə edən bu zonada anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, logistika və ticarət mərkəzi, yanacaqdoldurma məntəqələri fəaliyyət göstərəcək. Ən mühüm məqamlardan biri - Zəngəzur dəhlizinin (TRIPP) əsas hissəsi olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd layihəsinin 90-95 faizi tamamlanıb.

Azərbaycan-Türkiyə dostluğunu, qardaşlığını əks etdirən, rəmzi simvolu olan "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də Cəbrayılda yerləşir. Bu gün Cəbrayılda da meşə bərpa işləri görülür və yaşıllıq sahələri salınır. Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının tikintisi də davam etdirilir.

Cəbrayıl şəhərinə növbəti sakinlərin köçürülməsi üçün ikinci yaşayış massivinin də tikintisinə başlanılıb. Ümumilikdə əhalinin rahat yaşayışı üçün infrastruktur, sosial, ictimai-iaşə obyektləri tikilib istifadəyə verilir.

Cəbrayıl rayonunda 240 meqavat gücə malik günəş-elektrik enerjisi stansiyasının inşası da nəzərdə tutulub. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edilib.

Cəbrayılın Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı, Şükürbəyli, Horovlu, Soltanlı kəndlərinin də təməli qoyulub və yaşayış məntəqələrində artıq yenidənqurma işlərinə başlanılıb. Bu da onda xəbər verir ki, bu kəndlərin sakinləri də çox keçməyəcək dədə-baba torpaqlarına əbədi qayıdacaqlar.

### Cəbrayıllıların yurda dönüş sevinci

Prezident İlham Əliyevin sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib. Bu gün isə ilk azad şəhər günümüz - Cəbrayıl Şəhəri Günüdür. Ötən il - Cəbrayılın azadlığına qovuşmasının dördüncü ilində cəbrayıllılar da doğma yurdlarına qovuşdu. Böyük Qayıdışa dair I Dövlət Proqramı nəticəsində işğaldan azad olunmuş torpaqlara qayıdanlar arasında Cəbrayıl sakinləri də yer aldı.

2024-cü il sentyabrın 26-da ilk köç karvanı Cəbrayıl şəhərinə yola salındı. Digər şəhər və kəndlərə olduğu kimi, Cəbrayıla da köç prosesi mərhələli şəkildə davam edir. Bu günədək Cəbrayıl şəhərində ümumilikdə 659 ailə - 2856 nəfərin daimi məskunlaşması təmin olunub. Böyük qayıdış proqramı çərçivəsində Cəbrayıl şəhərinə, rayonun kəndlərinə hələ neçə-neçə köç karvanları yola salınacaq.

### "Sonsuz sevinc hisslərini yaşamaq xalqımızın ən böyük arzusu idi"

Milli Məclisin deputatı Ceyhun Məmmədov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq qələbəsi nəinki ölkə tarixinin, bütövlükdə dünyanın hərbi əfsanəsinə çevrilib. 4 oktyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunduğu müjdəsini verdiyi Cəbrayıl şəhəri 27 illik əsarətdən qurtuldu. "Həmin gün Azərbaycan xalqı, o cümlədən cəbrayıllılar böyük sevinc içində idilər. Bu tarixi müjdəyə sevinən xalqımız Azərbaycanın bütün şəhər və bölgələrində üçrəngli bayraqlarımızı dalğalandıraraq, qələbəmizə olan sevgilərini böyük coşqu ilə nümayiş etdirdilər. Bu günü görmək, bu sonsuz sevinc hisslərini yaşamaq xalqımızın ən böyük arzusu idi.

Deputat qeyd edib ki, ermənilər Cəbrayıl ərazisində bir neçə xətdən ibarət istehkamlar qurmuşdu və onları yarmaq böyük qəhrəmanlıq və fədakarlıq tələb edirdi. Cəbrayıldan sonra Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Üstəlik, Zəngilan, daha sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü. "1993-cü ildən ötən dövr ərzində böyük əziyyətlər hesabına əldə edilən nailiyyətlər, qazanılan uğurlar zərrə-zərrə bizi möhtəşəm qələbəyə yaxınlaşdırdı. Bu böyük sevinci cəbrayıllılara, bütün xalqımıza bəxş edən möhtərəm Prezident İlham Əliyevə, xalqımızın bütün igid əsgər və zabitlərinə ürəkdən təşəkkür edirik. Sevinirik ki, həyat öz axarına düşür, Cəbrayıl camaatı öz ata-baba yurdlarına qayıdır və yenidən xoşbəxt, firavan həyat sürməyə başlayır", - deyə o əlavə edib.

C.Məmmədov vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Cəbrayılda böyük quruculuq və abadlıq işləri həyata keçirilir. Cəbrayıllılar dövlət başçısının Cəbrayıla səfəri zamanı onun ictimaiyyət nümayəndələri ilə görüşünü yaxşı xatırlayırlar.

Deputat qeyd edib ki, Cəbrayılda görülən quruculuq işləri tezliklə rayonun, eləcə də işğaldan azad olunmuş digər rayonlarımızın dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcəyini deməyə əsas verir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və dirçəlməsi üçün davamlı tədbirlər həyata keçirilir. Bu istiqamətdə ən çox diqqətçəkən məqamlardan biri də yeni məktəblərin tikilməsidir. Şuşada, Füzulidə, Xankəndidə, Cəbrayılda və digər yerlərdə məktəblərin fəaliyyətə başlaması qürurvericidir. "Bu gün Cəbrayıl şəhərinə gedib sakinlərlə görüşəndə, orada görülən işlərlə tanış olanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən güclü siyasətin, xalqımızın böyük qəhrəmanlığı və Qarabağ zəfərinin nəticəsini müşahidə edirik. Müzəffər Ali Baş Komandanın iradəsi, ordumuzun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad edildi və bu gün Cəbrayıl öz sakinlərini yenidən qoynuna alır. Azərbaycanın iqtisadi gücü, həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, dövlətimizin siyasi möhkəmliyi məhz bu reallığı təmin edib. Ölkəmizin hər bir bölgəsində, xüsusilə də Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, Prezidentimizin uzaqgörən siyasətinin bariz göstəricisidir".

44 günlük Vətən müharibəsindən başlanan möhtəşəm qələbə ilə Azərbaycan əzəli torpaqlarını işğaldan azad etdi. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmiz işğaldan azad olunmuş ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin qayıdışını prioritet istiqamət kimi müəyyən edib. Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura ayrılan vəsait, həmin şəhər və kəndlərdə görülən geniş quruculuq işləri, əhalinin doğma yurda qayıdışı bunun bariz nümunəsidir. Çox keçməyəcək işğaldan azad olunmuş hər bir rayonun dirçəlişinin şahidi olacağıq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# 5 il öncə arxa cəbhə də döyüşürdü

## İnsanlar təmkinlərini pozmur, əllərini işdən soyutmurdular

**Ortayaşlı kişi təmkinini pozmamağa çalışaraq özünü ələ alıb onunla söhbət edən jurnalistə deyirdi: "Görün biz döyüş meydanından nə qədər aralıdayıq. Vəhşilər burada da terror törədirlər. Evimi-eşiyimi yerlə yeksan etdilər. Onlara demək gərəkdir ki, elə hünəriniz varsa, niyə orada göstərə bilmirsiniz, dinc əhaliyə, qocaya silah açırsınız? Bu, dünyanın harasında, hansı müharibədə görünüb?.. Mən bu evi təzədən tikəcəm. Ordumuz da onlara cavabı döyüşdə verir, qalib gələcəyik. Amma bu vandalizmi törədənlərin vicdanındakı qara ləkə əsrlər boyu tarixdə qalacaq".**

Bu sözləri deyən Gəncəmi, Tərtərmi, Bərdəmi, Naftalanmı sakini idi, yadımda qalmayıb. Amma bunun heç bir fərqi yoxdur. Vətən müharibəsinin davam etdiyi günlərdə cəbhədən kənardakı bölgələrdə evi-eşiyi düşmən tərəfindən dağıdılan hər kəs onda belə düşünur, belə deyirdi. Və ümumiyyətlə, bütün xalqımız eyni hiss və duyğularla, eyni arzu və amalla yaşayırdı o günlərdə...

Hamı yaxşı dərk edirdi ki, döyüşən ordumuzun gücü həm də ölkənin iqtisadi qüdrətindən asılıdır. Hər kəs öz çalışdığı sahədə iş başında idi. Xalq öz Prezidenti ətrafında sıx birləşmiş, bir yumruğa dönmüşdü. Hamı qəlbən döyüşən, düşmənə ağır zərbələr endirən oğulların yanında idi. Qələbələrin sevincini də birlikdə yaşayırdıq, şəhadətə qovuşan igidlərimizin itkisini də...

O vaxt koronavirus hələ də öz amansız hökmündə idi. Odur ki, daha bir düşmənlə mübarizə aparırdıq. Bununla belə, arxa cəbhədə heç kəsin əli işdən-gücdən soyumurdu. Döyüş meydanından bir-birinin ardınca qələbə soraqları gəldikcə, beynəlxalq aləm bir mühüm qələbəmizdən də xəbər tutdu. Təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan "Cənub qaz dəhlizi"nin sonuncu seqmentinin - ölkəmizdə hasil olunan mavi yanacağı Avropaya nəql edəcək TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tikinti işləri sona çatdı.

Öz qəhrəmanlıq ənənələrinə sadiq qalan Azərbaycanın neftçilər ordusu da əmək növbəsində idi. Neftçilərimiz yerin təkindəki və dənizin dibindəki sərvətləri üzə çıxarır, ölkənin iqtisadi qüdrətini artırır, xalqımıza, döyüşən ordumuza dəstək olurdular. SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) baş ofisində keçirilən onlayn müşavirədə onlar ölkənin Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul etdilər. Müraciətdə bildirilirdi ki, neftçilər sırasından da könüllü olaraq ön cəbhəyə gedənlər var. Qalanları arxa cəbhədə Vətənin qüdrətini artırmaq uğrunda səylə çalışırlar. Bununla yanaşı, onlar da döyüşlərə qatılmaq şövqü ilə yaşayır, hər an intizarla əmr gözləyirlər: "Cənab Ali Baş Komandan, biz neftçilər Azərbaycanın ərazi bütövlüyünün bərpası, uzun illərdən bəri haqqı tapdanmış soydaşlarımızın öz doğma ocaqlarına qayıtması, Vətənimizin və xalqımızın əbədi azadlığı və xoşbəxtliyi naminə başladığınız bu haqq işinizə sona qədər sadiqik və əmrinizi gözləyirik. Bu gün hamımız şanlı Azərbaycan əsgəriyik. Vətənimizin işğaldan tamamilə azad olunacağı anı günbəgün, saatbasaat yaxınlaşdırmaq üçün hamımız əlimizdən gələni etməli, gecə-gündüz çalışaraq, Azərbaycanın haqq işinə - ədalətin təntənəsinə töhfəmizi verməliyik".

Neftçilər döyüşən ordunu, şəhid ailələrini və qaziləri unutmurdular. SOCAR-da Silahlı Qüvvələrə yardım kampaniyası təşkil olunmuşdu.

Dövlət bu çətin məqamlarda da əhalinin qayğılarını diqqət mərkəzində saxlayırdı. "Azəriqaz" İstehsalat Birliyi müharibənin davam etdiyi dövrün tək bircə həftəsi ərzində 700-dən çox fərdi yaşayış evinə qaz çəkilişini yekunlaşdırmış, onları mavi yanacaqla təmin etmişdi. Birlik payız-qış mövsümünə hazırlıqla bağlı qazlaşma işləri aparılan yaşayış məntəqələrində fəaliyyətini bir qədər də sürətləndirmişdi.

Kəndlinin də əli işdən-gücdən soyumurdu. İnsanlar çalışır, işləyir, payızın bol nemətlərini toplayır, qışa tədarük edir, qurub-yaradırdılar. Hər gün ölkənin müxtəlif bölgələrindən onlarca xoş xəbər gəlirdi. Pambıqçılar yüksək məhsuldarlıq göstəriciləri əldə edirdilər. Əgər 2019-cu ildə sahələrdən ümumilikdə 295 min ton pambıq yığılmışdısa, 2020-ci ildə Zəfər Gününədək bu qədər məhsul toplanmış, noyabrın ortasında isə məntəqələrə təhvil verilən "ağ qızıl"ın həcmi 300 min tonu ötüb keçmişdi.

Ümumilikdə isə həmin il pambıqçılıqda yüksək nəticə əldə olundu. 100 min hektar pambıq sahəsindən 335 min tondan çox məhsul toplandı və orta məhsuldarlıq əvvəlki illə müqayisədə 4 sentner artdı. Orta məhsuldarlıq 33,5 sentner təşkil etdi ki, bu da həmin vaxtadək Azərbaycanın pambıqçılıq tarixində qeydə alınan ən yüksək göstəricilərdən biri idi.

2020-ci ildə üzüm bağlarından əvvəlki ilə nisbətən çox məhsul yığıldı. Ən yaxşı göstəricilərə Şəmkir, Cəlilabad, Tovuz üzümçüləri nail oldular.

Qeyd edək ki, Vətən müharibəsi başlananda tarlalarda, bağ-bostanda payızın bol məhsulunun yığımı gedirdi. Bu məsul dövrdə heç bir gərginliyə baxmayaraq, Azərbaycan kəndlisi öz təmkinini itirmədi. Bitkiçilik məhsulları istehsalında artım dinamikası müşahidə olundu. Əvvəlki illə müqayisədə daha çox tərəvəz, meyvə və giləmeyvə, tütün, kartof, digər məhsullar istehsal edildi. Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanıldı.

Erməni faşizmi isə özünün bəd, insanlığa sığmayan cinayət əməllərindən əl çəkmir, dinc əməklə məşğul olan əhaliyə rahatlıq vermirdi. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı dönə-dönə terror törədirdi. Təkcə cəbhəyə yaxın ərazilər deyil, oradan uzaq yaşayış məntəqələri də raket atəşlərinə məruz qalırdı. Bununla belə, düşmənin bombaladığı, dinc sakinlərin yaralandığı və həlak olduğu bölgələrdə də insanlar işdən-gücdən ayrılmırdılar. Dəfələrlə atəşlərə məruz qalan Tərtərdə olduğu kimi. Rayonun pambıqçıları böyük zəhmət bahasına yetişdirdikləri pambığın yığımını davam etdirirdilər. Şiddətli döyüşlər məhsul yığımının sürətinə təsir göstərsə də, fermerlər nisbətən təhlükəsiz ərazilərdə məhsulu tez və itkisiz yığıb tədarük edirdilər. Deyirdilər ki, tarla da bir cəbhədir, ona görə də yüksək nəticələr qazanmağa çalışırıq.

Tərtərlilər heyvandarlıq məhsullarını da artırmağı qarşıya məqsəd qoymuşdular. Suqovuşanın işğaldan azad edilməsi böyük əhvali-ruhiyyə yaratmışdı. 30 ildir Tərtər çayının qabağını kəsən, on minlərlə hektar ərazini suya həsrət qoyan erməni vandalları cəzalarını almışdılar. İndi çat-çat olmuş torpaq sudan doyacaqdı…

Bölgələrdə payızlıq əkinlərin bəyanı prosesi davam edirdi. Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları rayonlarda vətəndaşlara səyyar xidmət göstərirdi. Növbəti aqrar səyyar xidmət Bərdə rayonunun Güloğlular və Şörəlli kəndlərində təşkil olunmuşdu. Baxmayaraq ki, o günlərdə bu bölgə də mənfur düşmənin hədəfində idi. Erməni vandalları dinc sakinlərə, döyüş getməyən bu yerlərə də qənim kəsilmişdi.

Səyyar xidmətlər bölgələr üzrə qrafik əsasında təşkil olunurdu. Bərdədən əvvəl payızlıq əkinlərin bəyanı ilə əlaqədar Xaçmaz, Masallı, Kürdəmir rayonlarında müvafiq xidmətlər göstərilmişdi.

Cəbhəyanı bölgələrin sahibkarlarına dəstək davam edirdi. İqtisadiyyat Nazirliyi bildirirdi ki, həmin bölgələrdə yerləşən mülki obyektlərlə yanaşı, çoxsaylı sahibkarlıq obyektləri də düşmən zərbələrinə məruz qalıb. Orada qeydiyyatda olan bir sıra vergi ödəyicilərinin təsərrüfat subyektlərinə, əmlaklarına külli miqdarda zərər dəyib, onların sahibkarlıq fəaliyyəti tamamilə dayanıb və ya əhəmiyyətli dərəcədə maliyyə itkiləri ilə üzləşib. İşğal altındakı rayonlarda və cəbhəyanı ərazilərdə qeydiyyatda olan mikro və kiçik sahibkarlıq subyektlərinə baş vermiş hadisələr nəticəsində dəymiş maddi zərərin təsirinin azaldılması, sahibkarlıq fəaliyyətinin davamlılığının təmin edilməsi məqsədilə həmin subyektlərə münasibətdə Dövlət Vergi Xidməti tərəfindən "İnzibati icraat haqqında" qanunun müddəalarına uyğun olaraq müvafiq qərar qəbul edilib.

Prezident İlham Əliyevin tapşırığı ilə Suqovuşan-Tərtər yolunun təmirinə başlanmışdı. Yəni hələ müharibə sona çatmamış bərpa-quruculuq işlərinə artıq start verilmişdi. Deməli, Qələbə qazanacağımıza şübhə yox idi!.. O inamla, o əzmlə başlanan quruculuq vüsətlə davam edir və Prezident İlham Əliyevin dediyi kimi, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# 5 il öncə erməni terrorçuları növbəti dəfə yanıldılar

## Anlamadılar ki, gəncəliləri hətta raket hücumları ilə də sarsıda bilməzlər

**2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başladı. Müharibənin elə ilk saatlarından, ilk günlərindən Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratdı. Ordumuzun gücü, qüdrəti qarşısında duruş gətirə bilməyən qəsbkarlar geri çəkilməyə məcbur oldular. Beləcə, müharibənin ilk günü xalqın gözündə böyük Zəfərin ümid işığı parladı.**



İkinci Qarabağ müharibəsinin sonrakı günlərində rəşadətli Azərbaycan Ordusu irəlilədikcə, döyüşlərdə qələbələr qazandıqca, düşmən tutduğu mövqeləri atıb qaçdı. Demək olar ki, hər gün 30 ilə yaxın işğalda qalmış şəhər və kəndlərimiz qəsbkarlardan təmizlənirdi.

Təəssüf ki, Ermənistan bu məğlubiyyətinin əvəzini mülki əhalimizdən çıxmağa başladı. Çirkin məqsədinə çatmaq üçün şəhər və qəsəbələrimizi, dinc insanlarımızı hədəfə aldı, qadağan olunmuş silahlardan istifadə edərək ağır müharibə cinayətləri törətdi. Qarabağ müharibəsinin davam etdiyi 44 gün ərzində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə 5 dəfə ballastik raket atdı. Özü də bu cinayəti sivil dünyanın gözü qarşısında törətdi.

İşğalçıların ilk raket hücumu 2020-ci il oktyabrın 4-də səhər saat 10 radələrində baş verdi. Erməni qəsbkarlarının atdığı raketlər mülki yaşayış məntəqəsinə, o cümlədən ikimərtəbəli binaya və həyət evlərinə düşdü. Nəticədə 1 mülki şəxs həlak oldu, 32 nəfər ağır yaralandı. Yaşayış evləri ilə yanaşı, mülki infrastruktura və tarixi abidələrə də ziyan dəydi. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri İkinci Qarabağ müharibəsinin davam etdiyi müddətdə təkcə oktyabrın 4-də deyil, 5-də, 8-də, 11-də və 17-də də Gəncəyə raket hücumları etdi. Hərbi əməliyyatların getdiyi döyüş meydanlarından xeyli uzaqda yerləşən şəhərin raket hücumlarına məruz qalması beynəlxalq hüququn kobud şəkildə pozulmasıyla yanaşı, həm də Ermənistanın dövlət səviyyəsində terrorçu olduğunu aydın şəkildə dünyaya göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyev bu dəhşətli hadisə baş verəndə sosial şəbəkə hesabında yazmışdır: "Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub, Gəncə şəhərinin dinc sakinlərini raketlə atəşə tutub. Bu, müharibə cinayətidir və Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır". Prezident daha sonra bildirib ki, bu, Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür. Bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz! Dövlətimizin başçısı onu da bildirmişdir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi cinayətlərə görə məsuliyyət daşıyır: "Azərbaycan tərəfi bütün bunlara layiqli cavab verəcək!"

Daim terroru dəstəkləyən işğalçı Ermənistan müharibənin davam etdiyi günlərdə yalnız Gəncəyə deyil, Mingəçevir, Bərdə, Qəbələ, Naftalan, Ağcabədi, Xızı, Siyəzən, Kürdəmir və digər ərazilərimizi də raket atəşinə tutmuş, Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkəmiz üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini, Bakı-Tbilisi-Ceyhan boru kəmərini, Bakı-Novorossiysk neft kəmərini hədəfə almışdı.

Qayıdaq 5 il öncəki hadisəyə. Oktyabrın 5-də səhər saatlarında atılan 3 raket zərbəsi nəticəsində Gəncənin 3 dinc sakini müxtəlif bədən xəsarəti ilə xəstəxanaya yerləşdirildi. Şah İsmayıl Xətai prospektində yerləşən ticarət mərkəzinə külli miqdarda ziyan dəydi. Bundan başqa, "İmamzadə" dini kompleksində də dağıntılar baş verdi. Amma bu da erməni cəlladlarına kifayət etmədi. Oktyabrın 8-də Gəncəyə növbəti dəfə raket atdılar. İnsanların şirin yuxuda olduğu vaxt endirilən zərbə nəticəsində ölən və yaralanan olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi. Gecə saat 3 radələrində atılan raket Həsən Əliyev və Pərviz Səmədov küçələrində yerləşən qeyri-yaşayış sahəsində xeyli dağıntı törətdi, bir avtomobil tamamilə yararsız hala düşdü. Bundan başqa, 1887-ci ildə xeyriyyə vəsaiti ilə inşa edilmiş Aleksandr Nevski Rus Pravoslav Kilsəsinə də ziyan dəydi.

Gəncədə dinc sakinlərin raket atəşi ilə qətlə yetirilməsi düşmənin nə qədər qəddar və məkrli olduğunu bir daha sübut etdi. İşğalçılar beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyasının müddəalarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozmaqla yaşlılara və azyaşlı uşaqlara qarşı soyqırımı törətdilər. Humanitar atəşkəsin imzalandığı vaxtdan cəmi 14 gün sonra Gəncəyə uzaqvuran ballistik raketlərin atılması insanlığa qarşı ən ağır bir cinayət idi. Təəssüf ki, 30 il işğala göz yuman beynəlxalq qurumlar Ermənistanın müharibə cinayətlərinə də lazımi reaksiya vermədilər, bu məsələyə də ikili standartlardan yanaşdılar.

Bu günlər Prezident İlham Əliyev Gəncə şəhərində şəhidlərin xatirəsinə inşa olunmuş Memorial Kompleksin açılışını etdi. Dövlətimizin başçısı tərəfindən 2022-ci ilin yanvarında təməli qoyumuş kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədilə tikilib. Özü də məhz həmin zərbələrdən birinin endirildiyi ərazidə - yaşayış binalarının yerində inşa olunub və 4 hektar sahəni əhatə edir. Orijinal memarlıq üslubu ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı iz - krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub saxlanılır. Ümumiyyətlə, bu abidə daim mübarizliyini qoruyub saxlayan Azərbaycan xalqının əzmkarlığının və qələbə əzminin təntənəsinə həsr olunub.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Bir sıra cinayətlərdə ittiham olunan Ermənistan vətəndaşlarının məhkəməsi gələn həftə davam etdiriləcək

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi gələn həftə davam etdiriləcək.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) məhkəmə iclası oktyabrın 6-na təyin olunub.



Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## ZƏFƏR gündəliyi

## 4 oktyabr 2020-ci il

# İlham Əliyevdən növbəti zəfər müjdəsi: "Cəbrayıl şəhəri işğaldan azad edilib"

*Oktyabrın 4-də Ermənistan ərazisindən Füzuli rayonunun ərazisi raket atəşinə, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə tutulub.*

*Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulub. Beynəlxalq təşkilatların nümayəndəlikləri vasitəsilə düşmənə bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq, proses davam edib.*

### Gəncə şəhəri raket hücumuna məruz qalıb

Düşmən Gəncə şəhərini Ermənistan ərazisindən atəşə məruz qoyub. Mülki əhali arasında ölən və yaralananlar olub. Yaşayış və ictimai-iaşə obyektlərinə ciddi ziyan dəyib. Erməni tərəfi isə məlumat yayaraq guya Gəncədəki hərbi obyektlərə atəş açılıb. Dünya bir daha erməni rəzilliyinə şahidlik edib.

Dünya bir daha şahidlik edib ki, düşmən tərəfindən açılan atəş nəticəsində Gəncədə dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəyib.

### Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülüb

Düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələri məhv edilib. Azərbaycan Ordusunun rəhbərliyi döyüş tapşırıqlarının uğurlu icrasını planlaşdırır və təşkil edir. Dəfələrlə edilən xəbərdarlığa məhəl qoymayan düşmənə qarşı Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov açıqlama verərək bildirib ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir.



### Mübariz İbrahimovun həlak olduğu posta bayrağımız sancılıb

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancılıb.

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb.

### Cəbrayıl şəhəri və bir neçə kənd işğaldan azad edilib

Ali Baş Komandan İlham Əliyev rəsmi "Tviter" (indiki "X") səhifəsində paylaşım edərək xalqa növbəti müjdəni verib: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Mehriban Əliyeva: "Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun!"

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edib:

"Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik



edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Ali Baş Komandan birlik komandirlərini, şəxsi heyəti təbrik edib

Ali Baş Komandan İlham Əliyev birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Onlara tapşırıq verib ki, müzəffər sərkərdənin təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirərək, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.



### Ali Baş Komandan: "Biz tarixi ədaləti bərpa edirik"

Axşam saatlarında Prezident xalqa müraciət edib. Prezident Cəbrayıl şəhərinin və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə xalqı təbrik edib.

Ali Baş Komandan deyib ki, bir həftədir döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaq: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır".

Prezident deyib ki, Azərbaycan tarixində bir çox şərəfli anlar olub, amma onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Azərbaycan ədaləti bərpa edir: "Biz Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

### İlham Əliyev atəşkəs şərtlərini bir daha açıqlayıb

Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" televiziya kanalına müsahibə verərək bir daha bəyan edib ki, Azərbaycanı heç kim haqq yolundan döndərə bilməz.

"Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir" deyən dövlət başçısı vurğulayıb ki, əgər Ermənistan atəşkəs istəyirsə, Azərbaycandan üzr istəyib, torpaqlarımızdan çıxmaqla bağlı vaxt cədvəli təqdim etsin. Belə olarsa, Azərbaycan Ordusunun uğurlu əməliyyatları dayandırılacaq və danışıqlar aparılacaq.

"Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Tarixin izi ilə





◆ Fətəli xan Xoyski - 150

# Milli dövlətçilik tariximizin parlaq siması

**Ötən əsrin əvvəllərində rus imperiyası tərəfindən süquta uğradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları və milli dövlətçilik sevdalıları Sovet hökumətinin qadağalarına baxmayaraq, həmişə xalqımızın qəlbində yaşamış, xatirələri əziz tutulmuşdur. Xüsusən Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Xalq Cümhuriyyəti irsinə və ideyalarına yüksək qiymət verilmiş, milli dövlət qurucularının fəaliyyətinə qayğı və ehtiram diqqət mərkəzində olmuşdur.**

1996-cı ilin mart ayında Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstana səfəri çox mətləblərə işıq saldı. Ulu Öndərin tapşırığına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk baş naziri Fətəli xan Xoyskinin dağılmış, itib-batmaqda olan məzarı tapıldı, yararlı hala salındı və qəbri üzərində büstü ucaldıldı. Eləcə də görkəmli ziyalı Həsən bəy Ağayevin axirət evi əsaslı şəkildə abadlaşdırıldı. Səfər zamanı Heydər Əliyev Tbilisinin Nəbatat bağında Azərbaycan ziyalılarının məzarlarını ziyarət etdi. Fətəli xan Xoyskinin büstünün açılışına qatıldı.

Hazırda bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi barədə imzaladığı sərəncam buna nümunədir.

Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi "İstiqlal Bəyannaməsi"ni imzalayanlardan biri olmuşdur. Sözügedən sərəncamda deyildiyi kimi: "Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir".

Fətəli xan İsgəndər xan oğlu Xoyski 1875-ci il noyabrın 25-də Şəkidə anadan olmuşdur. Nəcabətli, savadlı, xeyirxah bir nəslin davamçısı olan F.Xoyski 1892-ci ildə Yelizavetpol (Gəncə) klassik gimnaziyasını bitirdikdən sonra Moskva Universitetinin Hüquq fakültəsinə daxil olmuş, 1897-ci ildə buranı birinci dərəcəli diplomla bitirmişdir. F.Xoyski 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Suxumi, Batumi, Yekaterinadar dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışmışdır. Yekaterinadar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai-siyasi fəaliyyətində yeni mərhələ olmuşdur.

1907-ci ildə o, Gəncə quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilir. Amma onun Dumaya seçilməsi çar hökumətinin heç də ürəyincə olmur. Çünki Fətəli xan Dumanın iclaslarında müsəlman deputatları fraksiyası adından çar hökumətinin ucqarlardakı ayrı-seçkilik və köçürmə siyasətinə qarşı kəskin çıxışlar edərək etirazını bildirirdi.

1913-cü ildə Fətəli xan Bakıya köçür. O, şəhərdə baş verən bütün xeyriyyə tədbirlərinin keçirilməsinə dəstək olur və az vaxtda şəhərdə baş verən ictimai-siyasi hadisələrin ən fəal iştirakçısına çevrilir. 1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanları qurultayının təşkil edilməsində yaxından iştirak edir. Elə həmin ilin oktyabrında Bakı Şəhər Dumasına seçkilərdə müsəlman blokundan 10 mindən çox səs almış Fətəli xan Xoyski Dumanın sədri seçilir.

Rusiyada baş verən hadisələrin Azərbaycana təsiri Fətəli xan Xoyskinin diqqətini daha çox cəlb edirdi. O, bu hadisələrdən nəticə çıxararaq xalqının azadlığı və müstəqilliyi uğrunda mübarizəyə hüquqi yollarla başlayır. 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı olan Zaqafqaziya Seymi işə başlayanda Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 deputat arasında F.Xoyski də var idi. O, həmin ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində xalq maarif naziri vəzifəsinə təyin edilir. F.Xoyski bu vəzifəni icra edərkən Tiflisdə yaradılması qərarlaşdırılmış Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürür və israr edərək buna nail olur.

Zaqafqaziya Seymində fəaliyyət göstərən hər üç Cənubi Qafqaz millətinin nümayəndələri mənafe müxtəlifliyi üzündən vahid mövqedə birləşə bilmirdilər. Odur ki, mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas keçirərək, özlərini Azərbaycan Milli Şurası elan etdilər. Azərbaycanın idarəçiliyini öz üzərinə götürən Milli Şura mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və "İstiqlal Bəyannaməsi"nin qəbul olunması haqqında qərar qəbul etdi. Azərbaycan Milli Şurasının üzvü Fətəli xan Xoyski yekdilliklə Azərbaycan hökumətinin sədri seçildi və ona Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etmək tapşırıldı. Xoyski qısa zamanda öz hökumətinin tərkibini elan etdi. Bu hö-



kumətdə Fətəli xan baş nazir vəzifəsi ilə yanaşı, daxili işlər naziri vəzifəsini də tuturdu.

Milli Şura və hökumət fəaliyyətini davam etdirmək üçün Azərbaycana gəlir və ilk olaraq Gəncədə məskunlaşır. İstər Gəncədə, istər Bakıda Milli Şura və hökumət çox mürəkkəb daxili və xarici çətinliklərlə üzləşir. İlk addımlarını atan Azərbaycan Xalq Cümhuriyyətinin son dərəcə ağır daxili və beynəlxalq şəraitdə qanunverici və icra hakimiyyətinin əsas ağırlığı Xoyskinin üzərinə düşür. Bu çətinliklərə baxmayaraq, Milli Şuranın iclasında hökumətin yeni proqramı elan olunur. Fətəli xan bildirir ki, onun başçılıq etdiyi ikinci hökumətin başlıca vəzifəsi Azərbaycanın azadlığını və istiqlaliyyətini möhkəmləndirmək uğrunda ardıcıl mübarizə aparmaq olacaq.

"Tarix.info" yazır ki, F.Xoyskinin başçılıq etdiyi yeni hökumətin ilk tədbiri Bakı XKS-nin təcavüzünün qarşısını almaq, Bakı və ətraf əraziləri erməni-bolşevik işğalından xilas etmək və Azərbaycan hökumətinin fəaliyyətini bütün Azərbaycan ərazisində bərpa etmək üçün iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan etməsi oldu.

Milli Ordunun yaradılması işinə başlanılır. Xoyski hökuməti Azərbaycan dilini dövlət dili elan edir, ən əsası, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı vəhşiliklərini aşkara çıxarmaq məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaradır.

Bir faktı unutmaq olmaz ki, F.Xoyskinin ölkəyə rəhbərlik etdiyi zaman Azərbaycanda vəziyyət çox mürəkkəb idi. Həm daxili, həm də xarici qüvvələr müstəqilliyimizin məhvinə var gücləri ilə çalışırdılar. Buna baxmayaraq, yeni hökumət ölkədə bir çox sahə üzrə islahatlar apardı, mədəni quruculuq sahəsində mühüm tədbirlər həyata keçirməyə nail oldu. Amma çox təəssüflər olsun ki, bunları görməyən, daha doğrusu, görmək istəməyənlər də var idi. Parlamentdəki bir sıra partiya və fraksiyalar, xüsusən "Hümmət", "İttihad", "Əhrar" və sosialistlər Xoyski hökumətini "fəaliyyətsizlik"də günahlandıraraq ölkənin bütün problemlərini onun üstünə yıxmağa çalışırdılar. Onlara kəskin cavab olaraq M.Ə.Rəsulzadə həm mətbu orqanlarda, həm də parlamentin iclaslarında Xoyski hökumətini müdafiə edərək "...bu az müddətdə nə mümkündürsə, etmişdir" deyərək, qəti şəkildə etirazını bildirmişdi.

F.Xoyski ilk dəfə 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclasında hökumətin fəaliyyəti haqqında hesabat verir və çıxışının sonunda istefasını qəbul etməyi parlamentdən xahiş edir. Parlament hökumətin istefasını qəbul edərək onun təşkilini yenidən Xoyskiyə tapşırır. O, dekabrın 26-da hökumətin proqramı və tərkibi barədə parlamentdə yenidən məlumat verir. Müzakirələrdən sonra parlament Xoyski hökumətinin proqramını bəyənir və hökumətdə Xoyskiyə baş nazir vəzifəsi ilə yanaşı, xarici işlər naziri vəzifəsini də həvalə edir.

Tarixi faktlara nəzər saldıqda F.Xoyski haqqında maraqlı məlumatlarla qarşılaşırıq. Məsələn, professor V.İ.Razumovskinin 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" adlı məqaləsində qeyd edilir ki, Bakı Dövlət Universitetinin yaranması təşəbbüsü Fətəli xan Xoyskiyə məxsusdur. 1918-1920-ci illərdə milli hökumətə müxalif olan partiyaların mətbu orqanları (xüsusən də bolşeviklər) onu xalqın gözündən salmaq üçün yalan və iftira dolu təbliğatla məşğul olublar. Onların yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919-cu il fevralın 25-də Xoyski hökuməti yenidən istefa verib. Parlament istefanı qəbul etsə də, hökumət öz fəaliyyətini martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü hökumət qurulana qədər davam etdirib. Bu danılmazdır ki, təcrübəli, səriştəli dövlət xadimi Fətəli xan Xoyskinin son dərəcə mürəkkəb şəraitdə istefa verməyə məcbur olması Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratına mənfi təsir göstərib və nəticədə 1920-ci il aprelin 27-də XI ordu beynəlxalq hüquq normalarını pozaraq Azərbaycan sərhədlərini keçib və Xalq Cümhuriyyətinin varlığına son qoyub.

Bakıda və Azərbaycanda hakimiyyəti silah gücünə zəbt etmiş bolşeviklər milli hökumətin qurucularına qarşı çox amansızlıq göstərərək həbslərə başlayıblar. Yaranan gərgin vəziyyət Nəsib bəy Yusifbəyli və bir çox silahdaşı kimi, F.Xoyskini də Tiflisə mühacirət etməyə məcbur edib. Lakin bolşeviklər onu burada da rahat buraxmayıblar. Onun yaşayış yeri, hərəkət marşrutu müəyyənləşdirilib və Fətəli xan iki muzdlu erməni terrorçu - Aram Erkanyan və Misaq Qriqoryan tərəfindən dəhşətli şəkildə qətlə yetirilib.

Xoyskinin dəfn mərasimini Tiflisdəki İran konsulluğu onun adına layiq həyata keçirib və o, müsəlman qəbiristanlığında həmvətəni M.F.Axundzadənin yanında torpağa tapşırılıb.

F.Xoyski Yevgeniya adlı rus qızı ilə ailə həyatı qurub. Yevgeniya Fətəli ilə Azərbaycana gəldikdən sonra islamı qəbul edib və elə öz arzusu ilə Fətəli həmin gündən onu Ceyran adlandırıb. Bu izdivacdan cütlüyün bir qızı - Tamara, iki oğlu - Ənvər və Murad dünyaya gəliblər.

"Bizim də yaşamaq, azad yaşamaq haqqımız var!" söyləyən Fətəli xan Xoyski və onun əqidə yoldaşları azadlıqlarını da, xoşbəxtliklərini də millətin hüququ, istiqlalı, hürriyyəti uğrunda qurban veriblər. Azərbaycanın bu müstəqil, suveren və azad günləri naminə canlarından keçənlər xalqımızın və tariximizin yaddaşında əbədiyaşarlıq qazanıblar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan mövzusunda yeni kitabın təqdimatı olub




**Oktyabrın 3-də ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşr olunmuş "Azərbaycan" qəzetində Qərbi Azərbaycan mövzusu: sentyabr 1918 - oktyabr 1919" kitabının təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə 27 Sentyabr - Anım Günü ilə bağlı şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. "Biz uzun illər ortaya qoyulmasına imkan verilməmiş Qərbi Azərbaycan həqiqətlərini işıqlandırmaq istiqamətində ardıcıl fəaliyyət göstəririk. Ən yaxın tərəfdaşlarımızdan biri ali məktəblərimizdir. Onların arasında ADA Universiteti xüsusi yer tutur. ADA Universitetinin prorektoru Fariz İsmayılov Milli Məclisdə Qərbi Azərbaycan üzrə yaradılmış təşəbbüs qrupunun üzvü kimi bu məsələdə çox fəal iştirak edir və bütün tədbirlərimizdə yanımızdadır", - deyə Ə.Ələkbərli qeyd edib.

Ə.Ələkbərli təqdimatı keçirilən kitabın Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına mühüm töhfə verdiyini vurğulayaraq deyib: "Kitabda 1918-1920-ci illərdə Qərbi Azərbaycanda ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilmiş vəhşiliklər Azərbaycan mətbuatının materialları əsasında əks olunub. Bu faktlar həm tariximizin, həm də milli yaddaşımızın ayrılmaz hissəsidir".

O əlavə edib ki, əlifbanın tez-tez dəyişdirilməsi xalqımız üçün ciddi itkilərə səbəb olub: "Bu gün çox az ziyalımız 1918-1920-ci illərin mətbuatı ilə yaxından tanış ola bilir. Ona görə də həmin dövrün qəzet və məqalələrinin üzə çıxarılması və nəşri qarşıda duran vacib vəzifələrdəndir".

Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb. O bildirib ki, Azərbaycan tarix boyu dəfələrlə erməni millətçilərinin əsassız iddiaları və təcavüzkar siyasəti ilə üz-üzə qalıb. "Bu kitab bir daha göstərir ki, xalqımız tarixən basqılara, deportasiyalara, soyqırımı cəhdlərinə baxmayaraq, ciddi müqavimət göstərib. Həmin dövrdə mətbuatda dərc olunan yazılar, sadəcə, quru informasiya deyil, həm də xalqımızın faciələrini, eyni zamanda mübarizəsini əks etdirən qiymətli tarixi mənbələrdir. Bu kitab hər bir azərbaycanlının stolüstü kitabı olmalı, gələcək nəsillərə milli yaddaşın ötürülməsi baxımından mühüm vəsait kimi dəyərləndirilməlidir", - deyə deputat qeyd edib.

Aydın Mirzəzadə xatırladıb ki, ermənilər tarix boyu imperiya dairələrinə yaxın olmaqla, müxtəlif siyasi imkanlardan yararlanaraq Azərbaycan torpaqlarına iddialarını davam etdiriblər. O bildirib ki, XIX əsrin əvvəllərindən başlayaraq, daha sonra 1918-ci ildə və sonrakı illərdə erməni millətçiləri böyük dövlətlərin dəstəyi ilə bölgədə üstünlük qazanmağa çalışıblar. "Tarixi faktlar sübut edir ki, Azərbaycan xalqı daim təzyiqlərə məruz qalıb. Lakin bütün bunlara baxmayaraq, xalqımız milli varlığını qoruyub saxlamağı, mübarizəsini davam etdirməyi bacarıb. Bu kitabda həmin mübarizənin izləri aydın görünür. Ona görə də nəşrin təqdimatı yalnız elmi hadisə deyil, həm də tarixi ədalətin bərpası istiqamətində atılan mühüm addımdır", - deyə deputat bildirib.

O qeyd edib ki, Azərbaycan ziyalıları və mətbuat orqanları bu məsələnin işıqlandırılmasında mühüm rol oynamalıdır. A.Mirzəzadənin sözlərinə görə, tarixi faktların üzə çıxarılması, arxiv materiallarının toplanması və yeni nəşrlərin hazırlanması Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması işinə mühüm töhfə verir.

Təqdimat mərasimində çıxış edən tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə və başqaları qeyd ediblər ki, araşdırmalar yalnız tarixi faktların üzə çıxarılması ilə məhdudlaşmır, həm də hüquqi müstəvidə dəyərləndirilir. Bu baxımdan əsər Qərbi Azərbaycanda və bütövlükdə xalqımızın 200 illik tarixi boyunca baş verən faciələrin və törədilən cinayətlərin sənədlərlə təsdiq olunmuş salnaməsi kimi qiymətləndirilib.

Çıxışlarda vurğulanıb ki, "Azərbaycan" qəzetində dərc olunan məqalələr, arxiv materialları və müxtəlif mənbələr əsasında hazırlanan bu nəşr təkcə elmi ictimaiyyət üçün deyil, həm də beynəlxalq müstəvidə hüquqi əsas kimi istifadə olunacaq dəyərli mənbədir. Əsərdə yalnız ermənilərin törətdiyi qanunsuzluqlar deyil, eyni zamanda bu cinayətlərin arxasında duran qüvvələr də təhlil olunur. Bu faktların araşdırılması tarixi ədalətin bərpası baxımından xüsusi əhəmiyyət daşıyır.

# Ordubadın adət-ənənələrimizi yaşadan qədim məhəlləsi - Sərşəhər






**Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonu hər qarışı əcdadlarımızın milli-mənəvi dəyərlərindən, adət-ənənələrindən söz açan qədim məhəlləri ilə tanınır. Onlardan biri də Sərşəhər məhəlləsidir.**

AZƏRTAC xəbər verir ki, bu qədim məhəllənin meydanı illərdir el bayramlarının, əlamətdar günlərin qeyd olunduğu məkana çevrilib. Xüsusilə də milli adət-ənənələrimizi, milli kimliyimizi özündə ehtiva edən Novruz bayramı bu meydanda keçirilir. Meydana nəinki ordubadlılar, Naxçıvan şəhərindən, muxtar respublikanın, ölkənin digər bölgələrindən də gələnlər az olmur. Məhəllə qədim quruluşu, özünəməxsus ab-havası ilə xarici turistləri də heyran edir.

Ordubadın digər qədim məhəllələri kimi, Sərşəhərin də məscidi, çinarı və kəhrizi var. Sərşəhər məscidi XVIII əsrə aiddir. Məscid Nazirlər Kabinetinin qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Sərşəhər məscidinin bərpası da nəzərdə tutulub.




# III MDB OYUNLARI











## Gimnastlarımız uğurlu çıxış ediblər

**III MDB Oyunlarının 8-ci günündə 9 idman növü üzrə yarışlar keçirilib. Gəncə İdman Sarayında qılıncoynatma yarışları davam edib. Azərbaycan qılıncoynadanı Mirnuray Abasova bürünc medal qazanıb.**

Şpaqa növündə mübarizə aparan idmançımız yarımfinalda Rusiya təmsilçisi Anastasiya Zabelinaya (14:15) məğlub olub. Bununla da 3-cü yerə yiyələnib. O, bürünc medalla kifayətlənməsinə münasibət bildirib: "Yarışa ciddi hazırlaşmışdım. Medal qazanacağımı bilirdim, içimdə əminlik hissi vardı. Növbəti yarışlara daha yaxşı hazırlaşacam ki, medalımın əyarını qızıla dəyişim. Yarımfinaldakı rəqibimin təcrübəsi məndən çox olduğu üçün ona qalib gəlməyim çətin idi, baxmayaraq ki, qarşılaşmada uzun müddət hesabda irəlidə oldum. Lakin rəqibin təcrübəsi çox olduğu üçün istəyimi həyata keçirə bilmədim. Gələcəkdə qızıl medal qazanaraq Azərbaycanın bayrağını daha yüksəklərə qaldıracağam. Bu gün bürünc medal qazanmağımda əməyi olan məşqçilərimə təşəkkür edirəm".

Taisia Larkina qılıncoynatmanın şpaqa növündə birinci olub. Finalda rusiyalı Taisiya həmyerlisi Anastasiya Zabelinaya qalib gəlib. Həlledici görüş T.Larkinanın 15:13 hesablı qələbəsi ilə yekunlaşıb.

Yevlax Olimpiya İdman Kompleksində müxtəlif çəki dərəcələrində kişi boksçuların yarımfinal görüşləri keçirilib. Qazaxıstanlı rəqibinə 5:0 hesabi ilə qalib gələn və finala yüksələn Azərbaycan boksçusu Səfdər Məmmədzadə deyib:"Bu görüş mənim üçün çox önəmli idi. Finalda Özbəkistan boksçusu ilə qarşılaşacağam. Hazırlıq prosesinə davam edirəm və rinqə ən yaxşı formada çıxmağı planlaşdırıram. İndiyədək keçirdiyim bütün döyüşlər kifayət qədər çətin olub. Amma hamısında qalib gəlmişəm. Çünki mənim üçün məğlubedilməz rəqib yoxdur. Hər bir görüşə ciddi hazırlaşıram və özümə inanıram. Əminəm ki, III MDB Oyunlarının qaliblərindən biri də mən olacağam və ölkəmizə qızıl medal qazandıracağam".

Qəbələ Olimpiya İdman Kompleksində qız və oğlan badmintonçuların fərdi, cüt və qarışıq yarışları davam edib. 1/4 finala adlayan Azərbaycan təmsilçiləri müəyyənləşib. Kişilərin fərdi yarışında Əmirxan İmanov tacikistanlı Oqil Qoşimidən üstün olub - 2:0. Qadınlar arasında Viktoriya Kumanyayeva Tacikistandan olan həmkarı Mohira Karimovanı 2:0 hesabı ilə məğlub edib. Qadınların qoşa yarışında da Azərbaycan Tacikistanı mübarizədən kənarlaşdırıb. Nəzrin Mehrəlizadə və Viktoriya Kumanyayevadan ibarət komandamız Sumayyahon Hasanova və Mohira Karimova cütlüyünə qalib gəlib - 2:0. Qarışıq qoşa komandaların mübarizəsində Fərəc Kərimli - Aysel Kazımova dueti Qazaxıstandan olan Yerassil Ahmet və Amaliya Ormanovanı 2:0 hesabı ilə məğlub edib.











Şəki Olimpiya İdman Kompleksində isə qız və oğlan gimnastların fərdi və sinxron proqramda final mübarizəsi olub. Batut gimnastikası üzrə təmsilçimiz Maqsud Mahsudov (60.19 xal) oğlanların fərdi yarışında bütün rəqiblərini üstələyib və qızıl medala sahib çıxıb. O, bu nəticəni karyerasında ən böyük nailiyyət hesab edir: "Ölkəmizi təmsil edib bayrağımızı ucaltdığım üçün böyük məmnuniyyət duyuram. Azarkeşlərin dəstəyi çıxışımı yaxşı etməyimə böyük təsir göstərdi. Anam və bacım Selcan da tribunada məni dəstəkləyirdi. Böyük qürur hissi yaşayıram. Arzu edirəm ki, bu duyğuları bütün idmançılar yaşasın".

Belaruslu ikiqat Olimpiya çempionu İvan Litvinoviç (57.06) gümüş, qazaxıstanlı Nikita Tumakov (47.24) isə bürünc medal qazanıblar.

Azərbaycan millisinin üzvü Selcan Mahsudova isə bürünc medala yiyələnib. O, qadınların fərdi yarışında 56,040 xal toplayıb. Belaruslu Lana Lebedeva 57,710 xalla qızıl, rusiyalı Anjela Bladçeva 57,660 xalla gümüş mükafata sahib çıxıblar.

Batut gimnastikası üzrə Azərbaycan millisinin üzvləri daha bir bürünc medal qazanıblar. Selcan Mahsudova və Şəfiqə Hümbətova qadınların sinxron proqramında üçüncü olublar.

Azərbaycan millisinin üzvləri Maqsud Mahsudov və Hüseyn Abbasov oğlanların sinxron proqramında üçüncü olublar və növbəti medalı qazanıblar. Gimnastlarımız Selcan Mahsudova və Maqsud Mahsudov daha bir medal əldə ediblər. Onlar qarışıq komanda yarışında 49.930 xalla gümüş medala yiyələniblər. Birinci pilləni Belarus təmsilçiləri (51.270 xal) tutublar, Qazaxıstan gimnastları isə (47.280 xal) üçüncü olublar.

Beləliklə, Azərbaycan batut gimnastları yarışı 1 qızıl, 2 gümüş, 3 bürünc medalla başa vurublar.

Kamandan oxatma yarışları Xankəndi şəhər stadionunda keçirilir. Azərbaycan idmançısı Yaylagül Ramazanova bu dəfə hakim qismində iştirak edib. Kiçik qızı da onunla birgə olub. Xatırladaq ki, Yaylagül Paris-2024 Yay Olimpiya Oyunlarında yarışlarda çıxış edib. Olimpiya Oyunlarından cəmi iki ay sonra ana olan idmançının hekayəsi bir çox insanı ilhamlandırıb.

Gəncə Olimpiya İdman Kompleksində müxtəlif çəki dərəcələrində güləşçilərin mübarizəsinə start verilib.

Mingəçevir "Kür" Olimpiya Mərkəzində isə karate üzrə yarışlar başlayıb və Azərbaycan III MDB Oyunlarında daha bir qızıl medalı təmin edib. Bu, Mədinə Sadiqova ilə Nəzrin Piriyevanın (hər ikisi 55 kq) finala yüksəlməsindən sonra məlum olub. Fərid Savadov (60 kq) da həlledici döyüşə vəsiqə qazanıb. Karate yarışları oktyabrın 4-də başa çatacaq.

Gəncə idman arenasında isə voleybol üzrə oyunlar keçirilib. B qrupunda yer alan qadınlardan ibarət Azərbaycan millisi Özbəkistan, Rusiya isə Qırğızıstanla qarşılaşıb.

Qəbələ şəhər stadionunda futbol üzrə üçüncü və beşinci yerlər uğrunda oyunlar təşkil olunub. Belarus və Tacikistan millіləri bürünc medal üçün yarışıblar. Digər görüş isə Özbəkistan və Qırğızıstan arasında baş tutub.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

## III MDB Oyunları ilə əlaqədar Şəkidə də polisin fasiləsiz xidməti təşkil olunub






**Ölkəmizdə keçirilən III MDB Oyunları ilə əlaqədar Şəkidə də təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən gücləndirilmiş xidmət təşkil olunub.**

Rayon ərazisində və Oyunların keçirildiyi məkanlarda xidmətə əlavə canlı qüvvə cəlb edilib.

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları ictimai asayişin qorunması, hər hansı hüquqazidd əməllərin qarşısının vaxtında alınması, eləcə də köməyə ehtiyacı olan şəxslərə operativ yardım göstərilməsi istiqamətində fasiləsiz rejimdə fəaliyyət göstərirlər.

***"Azərbaycan"***





# Paşinyan müxalifəti kənarlaşdırır

## Ermənistanda konstitusiya dəyişiklikləri üzrə Şura seçki sistemi ilə bağlı qərarlar qəbul edəcək

**Ermənistanda müxalifət planlaşdırdığı aksiyalarla baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir. Müxalifətçilər keçiriləcək etirazlara səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər.**

Keçmiş hərbi xunta isə yaranmış vəziyyətdən istifadə edərək Qarabağdan köçən ermənilər vasitəsilə ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Elə siyasi proseslərdə də onlardan yararlanaraq fərqli atmosfer yaratmağı düşünürlər.

Artıq Ermənistanın rəhbərliyi bütün reallıqları etiraf edir və çıxış yolunu Azərbaycanla münasibətlərin normallaşmasında görür. Lakin müxalifət bu prosesi pozmağa cəhd göstərir.

Ermənistan parlamentinin sədri Alen Simonyan isə bildirib ki, ölkədə parlament müxalifəti mövcud deyil. Sadəcə, parlamentin növbəti çağırışında özlərinə yer tapmaq üçün digər siyasi qüvvələrin sıralarında yer axtaran müəyyən şəxslər var. Onları heç kim dinləmir, küçədə isə yeddi nəfəri belə toplaya bilməzlər.

"Hraparak" nəşri "Tarixi" qərar elan olunacaq" başlıqlı məqaləsində yazıb ki, konstitusiya dəyişiklikləri üzrə Şura ötəngünkü iclasında seçki sisteminin ən çox tənqid olunan müddəasından imtina etməyə qərar verib: "Əgər parlament seçkilərinin birinci turunda sabit çoxluq formalaşmırsa, siyasi qüvvələr də koalisiya yaratmaq barədə razılığa gəlmirlərsə, ikinci tur keçirilir və orada ən çox səs toplamış iki qüvvə iştirak edir".

Nəşrə görə, Şuranın bu qərarı ötən gün müxalifətçi siyasətçilərin iştirakı olmadan qəbul olunub: "Gözlənilir ki, tezliklə hakimiyyət və onların tərəfdarları bu müddəadan imtinanı gurultulu şəkildə "tarixi qərar" kimi təqdim edəcəklər, çünki onun mahiyyəti məcburi qaydada sabit çoxluq formalaşdırmaq idi. İndi bu müddəa ləğv olunur, amma onun nə ilə əvəzlənəcəyi aydın deyil".

Qeyd edilib ki, dəyişikliklərin konsepsiyasında hökumətin formalaşmaması ilə bağlı 3 variant nəzərdə tutulur: "Birinci variant - Ermənistan prezidentinə səlahiyyət verilir ki, "azlıq hökuməti" formalaşdırsın, parlamenti buraxsın və ən çox deputat qrupu olan fraksiyaya baş nazir təklif etmək imkanı versin. Təbii ki, Paşinyan reytinqə malik olmasa da, inzibati resurs hesabına önə çıxacaq. İkinci variant - İrəvan meri seçkilərinin modeli tətbiq olunur: ən çox səs toplayan qüvvənin nümayəndəsi baş nazir olur, bu halda da azlıq hökuməti yaranacaq. Qismən hakimiyyətə sərf etməyən üçüncü variant isə azlıq hökumətini istisna edir. Bu halda parlament hüquqi qüvvə ilə o vaxta qədər buraxılacaq ki, hər hansı qüvvə çoxluq əldə etsin və ya koalisiya yaratsın. Bu da təhlükəlidir. Çünki kollektiv məsuliyyətsizlik vəziyyəti yaranacaq. Bununla belə, hətta yeni konstitusiya layihəsi bu şəkildə qəbul edilsə də, qarşıdakı 2026-cı il seçkilərinə bu dəyişikliklər şamil olunmayacaq".

Hər halda baş verənlər Ermənistanı qarşıdakı dövrdə mürəkkəb proseslər gözlədiyini göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sağlamlıq mərkəzləri ilə tanışlıq olub














**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Buzovna" fizioterapiya, "Bilgəh" kardioloji və "Abşeron" mədə-bağırsaq təyinatlı sağlamlıq mərkəzinə baxış keçirilib.**

Səhiyyə naziri Teymur Musayevin də iştirak etdiyi tədbirdə məlumat verilib ki, konfederasiya tərəfindən sağlamlıq və istirahət mərkəzlərində müasir və rahat şərait yaradılır. "Buzovna", "Bilgəh" və "Abşeron" sağlamlıq mərkəzlərində də şərait yaxşılaşdırılıb, ən müasir tibbi avadanlıqlarla təchiz edilib.

Mərkəzlərdə tibbi laboratoriyalar, müalicə və istirahət sahələri, tibbi xidmətlərin təşkili, istifadə edilən müasir avadanlıqlar və reabilitasiya prosedurları ilə tanışlıq olub. Vurğulanıb ki, mərkəzlərdə müalicə və reabilitasiya üçün müasir tibbi texnologiyalar tətbiq edilir.

Qeyd edilib ki, yollayışların verilməsi e-ahik elektron rezervasiya sistemi vasitəsilə həyata keçirilir. Sistem insan təması olmadan, sürətli və şəffaf şəkildə müraciət və qeydiyyat imkanı yaradır ki, bu da xidmətlərin əlçatanlığını və vətəndaş məmnuniyyətini əhəmiyyətli dərəcədə artırır.

Səhiyyə naziri Teymur Musayev Konfederasiyanın sağlamlıq mərkəzlərində yaradılmış şəraiti, müasir tibbi avadanlıqlarla təchizatı, tibbi heyətin peşəkarlığını və göstərilən xidmətlərin keyfiyyətini yüksək dəyərləndirib. Nazir həmçinin kadr hazırlığı və birgə layihələrin icrası istiqamətində konfederasiya ilə əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

*Nərminə ƏSGƏROVA, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Mikroplastiklər sümükləri zəiflədir

**İnsanın yaratdığı hər yeni texnologiya, hər yeni məhsul həyatı asanlaşdırmaqla yanaşı, bəzən yeni təhlükələrin də qapısını açır. Bu gün məişət əşyalarından tibbi alətlərə qədər hər yerdə plastik məhsullarla rastlaşırıq. Statistikaya görə, dünyada hər il 400-500 milyon ton plastik istehsal olunur. Onların isə yalnız cüzi hissəsi, təxminən 9 faizi təkrar emala gedir, qalanı isə ətraf mühitdə parçalanaraq mikroplastiklərə çevrilir.**



Mikroplastiklər dedikdə, diametri 5 millimetrdən kiçik plastik hissəciklər nəzərdə tutulur. Artıq sübut olunub ki, bu xırda parçalar okeanlardan torpağa, havadan içməli suya qədər hər yerdə var. Hətta insan qanında, ana bətnindəki dölün toxumalarında, həzm orqanlarında belə mikroplastiklər aşkarlanıb. Bu fakt yalnız bu günümüz üçün deyil, gələcək nəsillərin sağlamlığı üçün də ciddi təhlükədir.

Təhlükənin miqyası düşündüyümüzdən daha genişdir. Hər bir insanın ildə təxminən 50 minə yaxın mikroplastik udduğu təsdiqlənib. Alimlər plastik çirklənmənin sağlamlığa zərər verə biləcəyi barədə xəbərdarlıq edir və plastikdən istifadənin təcili olaraq azaldılmasının vacibliyini vurğulayırlar. Onlar bildirirlər ki, bu kiçik "düşmənlər" qana keçərək hüceyrələrdə iltihab yaradır, toxumalara zərər verir, orqanizmdə xroniki xəstəliklərə zəmin hazırlayır. Son tədqiqatlar göstərir ki, mikroplastiklərin hədəfi təkcə ürək, ağciyər və sinir sistemi deyil. Artıq sümüklərimiz də təhlükə altındadır.

Beynəlxalq alimlər qrupu plastik hissəciklərin sümük iliyinə nüfuz edə bildiyini və onun funksiyasını pozduğunu aşkar edib. Bu, sümük hüceyrələrinin böyüməsini zəiflədir, ilikdəki kök hüceyrələrin fəaliyyətinə zərbə vurur. Nəticədə sümüklərin mineral tərkibi pozulur, möhkəmliyi azalır, kövrəkləşir və sınıqlara daha meyilli olur. Bu zaman osteoporoz, yəni sümük əriməsi riski də artır. Xəstəlik üçün məlum risk faktorları arasında yaş, cins, dərman istifadəsi, pəhriz, siqaret və alkoqol istehlakı və genetika daxildir. Mikroplastiklərin sümüklərin mexaniki möhkəmliyinə təsiri hələ tam öyrənilməsə də, artan dəlillər hissəciklərin sümüyə dərindən nüfuz edə və onun maddələr mübadiləsini pozmağa qadir olduğunu göstərir.

"Osteoporosis International" jurnalında dərc edilən araşdırmada mikro və nanoplastiklərin sümüklərə təsirlərini araşdıran 62 elmi məqalə qiymətləndirilib. Laboratoriya təcrübələri mikroplastiklərin sümük toxumasını parçalayan osteoklastların əmələ gəlməsinə təkan verdiyini ortaya qoyub. Heyvanlar üzərində aparılan təcrübələrdə mikroplastiklərin skelet inkişafında ləngimə yaratdığı müşahidə olunub. Hüceyrə sınıqlarında isə sürətlənmiş qocalma, canlılığın azalması və maddələr mübadiləsinin pozulması qeydə alınıb. Ən narahatedici məqam isə odur ki, bu təsirlər xüsusilə uşaqlar və yeniyetmələrdə sümük inkişafına mənfi təsir göstərə bilər.

Əgər bu gün tədbir görülməsə, sabah daha böyük fəsadlarla qarşılaşacağıq. Çıxış yolu isə hər kəsin üzərinə düşən məsuliyyətdən keçir. Bu məsuliyyət plastikdən istifadəyə məhdudiyyət qoymaq, təkrar plastik emal sistemlərini təkmilləşdirmək, istehlak vərdişlərini dəyişməkdir.

Bu gün atılan kiçik addımlar gələcək nəsillərin sağlamlığı üçün böyük zəmanət ola bilər. Əks halda, görünməz düşmən - mikroplastiklər yalnız təbiəti deyil, insan orqanizminin təməl dayaqlarından biri olan sümükləri də səssizcə zəiflədir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Azərbaycan və Özbəkistan futbol üzrə U-20 dünya çempionatının final mərhələsinə birgə evsahibliyi edəcək

**Oktyabrın 2-də FIFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.**




AFFA-dan AZƏRTAC-a verilən məlumata görə, İcraiyyə Komitəsinin qərarına əsasən, Azərbaycan və Özbəkistan 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə birgə evsahibliyi edəcək.

Bu tarixi nailiyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin uğurlu idman siyasətinin, o cümlədən ölkələrimizdə futbolun inkişafına göstərdikləri diqqətin nəticəsidir.

AFFA yüksək inam və etimada görə FIFA İcraiyyə Komitəsinin üzvlərinə, xüsusən də qurumun prezidenti cənab Canni İnfantinoya minnətdarlığını bildirib.

Qeyd edək ki, 1977-ci ildən etibarən iki ildən bir təşkil edilən U-20 dünya çempionatının 25-cisinə Azərbaycan və Özbəkistan evsahibliyi edəcəklər. Bununla futbol tarixində ilk dəfə kişilərin yarışında mundial Azərbaycanda keçiriləcək. Həmçinin ilk dəfə Azərbaycanın kişilərdən ibarət milli komandası dünya çempionatının final mərhələsində iştirak edəcək.

İndiyə qədər Argentina 6, Braziliya 5 dəfə dünya çempionu olub. Portuqaliya və Serbiya hərəyə 2 dəfə mundialın qalibi olublarsa, Uruqvay, Qana, İspaniya, Rusiya, Almaniya, İngiltərə, Fransa və Ukrayna hərəyə 1 dəfə kuboku qazanıblar.

Avropanın nəhəng klubları kifayət qədər böyük nüfuza malik olan U-20-lərin dünya çempionatlarından saysız-hesabsız istedadlı futbolçular kəşf ediblər. Hazırda Çilidə keçirilən 24-cü dünya çempionatında 24 komanda 6 qrupda mübarizə aparır. 2023-cü ildə Argentinada təşkil olunan son turnirin qalibi isə Uruqvay yığması olub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və kollektivi
**OQTAY ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva, Kamaləddin Qafarov, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Şirəliyevlər ailəsinə
**OQTAY ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri, professor
**OQTAY ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mirələm və Mirhaşim Calalovlar professor
**OQTAY KAZIM OĞLU ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Hüseynbala Mirələmov və ailəsi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası
**TÜKƏZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının sabiq səhiyyə naziri
**OQTAY ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası
**TÜKƏZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri
**OQTAY ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası
**TÜKƏZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4095
Sifariş 2006

Qiyməti 60 qəpik